**31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni iliniz mübarək!**

İman gətirənlərdən (müsəlmanlardan), musavi (yəhudi), isəvi (xristian) və sabiilərdən Allaha, axirət gününə (sədaqətlə) inanıb yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır. (Qiyamət günü) onların nə bir qorxusu olar, nə də onlar bir qəm-qüssə görərlər.

(Qurani-Kərim, əl-Bəqərə, 62)

## Ölkəmizdən Tacikistana humanitar yardım

Prezident İlham Əliyevin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyi (FHN) dekabrın 27-də Azərbaycan hökuməti adından Tacikistanın Dağlıq Bədəxşan Muxtar Vilayəti ərazisində baş vermiş güclü zəlzələ ilə əlaqədar bu ölkəyə humanitar yardım yola salıb.

Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanından bərə ilə yola salınan, 11 yük maşınından ibarət və ümumi dəyəri 800 min manat olan humanitar yardıma qənd, şəkər tozu, düyü, çay, bitki yağı, un, makaron, vermişel, 2000 ədəd yataq dəsti (yastıq, ədyal, döşəkağı dəsti), 50 ədəd generator, 110 ədəd çadır, 6000 kvadratmetr dam örtüyü (dəmir şifer) və 30 kubmetr taxta daxildir.


www.scwra.gov.az

# Cəmiyyət və Din

Dinimiz milli-mənəvi sərvətimizdir.

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 12 (293) / DEKABR 2015-ci il




# Prezident İlham Əliyev dünya azərbaycanlılarını təbrik edib

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Vətən təəssübkeşliyi, doğma yurda və milli-mənəvi dəyərlərə bağlılıq kimi nəcib hisslər aşılayan 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində sizi salamlayır, hər birinizə xoş arzu və diləklərimi çatdırıram.

Bütün soydaşlarımızın azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək mütəşəkkil qüvvəyə çevrilməsi məsələsinə xüsusi diqqət yetirən Ümummilli Lider Heydər Əliyev bu sahədə tarixi qərarlar qəbul etmiş, xaricdə məskunlaşmış həmvətənlərimizin hüquqlarının qorunmasına, diaspor quruculuğunun geniş vüsət almasına yönələn əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq, bu gün diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycan həqiqətlərinin təbliği, milli maraqlarımızın müdafiəsi və respublikamızın digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərinin dərinləşməsi işinə öz töhfələrini verirlər.

Hazırda davam edən qlobal maliyyə-iqtisadi böhrana baxmayaraq, hamımızın doğma vətəni olan Azərbaycan Respublikasında 2015-ci ildə də sosial-iqtisadi artım dinamikası qorunub saxlanmış, müxtəlif sahələri əhatə edən dövlət proqramları və infrastruktur layihələri ardıcıl icra edilmişdir. Ölkəmiz Avropa ilə Asiyanı, Şimalla Cənubu bir-birinə bağlayan nəhəng transmilli enerji-nəqliyyat layihələrinin həyata keçirilməsində mühüm rol oynayır. İlin əvvəlində təməli qoyulmuş TANAP layihəsi də daxil olmaqla, zəngin qaz ehtiyatlarımızın dünya bazarlarına nəqli sahəsində nəzərdə tutduğumuz planların gerçəkləşdirilməsi Azərbaycanın etibarlı enerji təchizatçısı kimi beynəlxalq aləmdəki rolunu daha da artıracaq, respublikamızın gələcək inkişafı və xalqımızın rifahının yüksəldilməsi yolunda yeni perspektivlər açacaqdır.

Bu il Azərbaycan böyük idman bayramına - Birinci Avropa Oyunlarına ev sahibliyi etmişdir. Qitənin 50 ölkəsinin idmançılarının iştirakı ilə keçirilən bu tədbir yüksək səviyyədə təşkil olunmuş, beynəlxalq ictimaiyyətdə dövlətimizin potensialı, xalqımızın çoxəsrlik tarixi və zəngin mədəniyyəti, qonaqpərvərliyi və tolerantlıq ənənələri barədə müsbət təəssüratlar yaratmışdır.

Son dövrlər dünyanın müxtəlif guşələrində hərbi-siyasi münaqişələrin və iğtişaşların artmasına baxmayaraq, Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik, hakimiyyət və xalq arasında etimad mühiti daha da möhkəmlənmişdir. Noyabr ayında demokratik və şəffaf şəraitdə keçirilmiş növbəti parlament seçkiləri də cəmiyyətin nikbin əhval-ruhiyyəsinin, xalqımızın aparılan siyasətə dərin rəğbətinin parlaq təzahürü olmuşdur.

Təəssüflə qeyd etməliyəm ki, Ermənistanın təcavüzkar siyasəti və qeyri-konstruktiv mövqeyi ucbatından hələ də həllini tapmamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hamımızı narahat edən taleyüklü problem kimi qalır. Bu gün Azərbaycan Respublikası güclü iqtisadiyyata və torpaqlarımızı hər an işğalçılardan azad etməyə hazır olan qüdrətli orduya malikdir. Lakin biz yenidən qan tökülməsinin qarşısını almaq, regionda gərginliyi artırmamaq məqsədilə münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində dinc yolla ədalətli həllinə çalışırıq. Hesab edirəm ki, bundan sonra da səylərimizi birləşdirməli, işğal edilmiş ərazilərimizin azad edilməsi uğrunda ardıcıl və məqsədyönlü iş aparmalıyıq. Bu sahədə diaspor təşkilatlarımızın da üzərinə mühüm vəzifələr düşür. Azərbaycanın suverenliyinin qorunması və ərazi bütövlüyünün təmin edilməsinə öz həmrəyliyimiz və birgə fəaliyyətimizlə sanballı töhfə vermək bizim başlıca amalımız olmalıdır.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibəti ilə səmimi-qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, firavanlıq və işlərinizdə uğurlar arzulayıram.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri,*
*24 dekabr 2015-ci il.*



## "İlham Əliyev: Azərbaycan tolerantlıq örnəyidir" kitabının təqdimatı keçirilib

səh. 2



## Yaradılış sirri

səh. 14

## Prezident İlham Əliyev məhkum edilmiş bir sıra şəxslərin əfv olunmasına dair Sərəncam imzalayıb

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalayıb.***

Sərəncamda məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, insan hüquqları üzrə müvəkkilin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxıldığı, məhkumların şəxsiyyətinin, səhhətinin, ailə vəziyyətinin, cəza çəkdikləri müddətdə davranışlarının nəzərə alınaraq, humanizm prinsiplərinə əsaslandığı qeyd edilib.

Sərəncama əsasən, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 198 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Bundan başqa, 3 nəfər islah işləri cəzasının çəkilməmiş hissəsindən, 9 nəfər isə cərimə cəzasından azad olunub.



**"Heç kim ölkədə öz şəxsi istəklərinə uyğun qayda-qanun yarada bilməz. Bu, qeyri-mümkündür. Kimsə nə vaxtsa dövlətin təməl sütunlarına toxunmaq istəyirsə, ona heç vaxt güzəşt olunmayacaq".**

## Dövlət müşaviri Kamal Abdullayev:
# "Heç kim ölkədə öz şəxsi istəklərinə uyğun qayda-qanun yarada bilməz"

Bu fikirləri Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev Qafqaz Müsəlmanları İdarəsi Elmi-Dini Şurasının və Qazılar Şurasının birgə toplantısındakı çıxışında bildirib.

Kamal Abdullayev qeyd edib ki, dövlətimizin öz gələcək strategiyasının səbatlılığını təmin etmək istiqamətində atdığı hər bir addım Azərbaycan vətəndaşlarını, o cümlədən dindarlarımızı qorumaq məqsədi daşıyır. Bu gün ölkəmizdə dinindən, dilindən, milliyyətindən asılı olmayaraq bütün vətəndaşlarımızın bir hədəfi var. Bu da azərbaycançılıq ideologiyasıdır. Bu ideologiyanın əsasını Ulu Öndər Heydər Əliyev qoyub. Azərbaycan xalqı böyük təcrübələrdən keçmiş bu yolun səmərəsini, bəhrəsini artıq görüb və görməkdədir. Ölkəmizdə tolerantlıq mühitinin qorunmasında Ümummilli Liderin əvəzsiz xidmətləri olub. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Dövlət müşaviri ölkəmizdəki dövlət-din münasibətlərindən danışarkən qeyd edib ki, müstəqilliyini bərpa edən zaman Azərbaycanda cəmi 17 məscid var idi. Bu gün isə ölkəmizdə 2 minə yaxın məscid fəaliyyət göstərir. Azərbaycanda məzhəb problemi yoxdur, tam tolerantlıq mühiti hökm sürür.

Nardaranda baş verən hadisələrlə bağlı danışan Kamal Abdullayev əminliklə bildirib ki, bundan sonra nardaranlılar həqiqi İslam dininin əsaslarına uyğun öz fəaliyyətlərini davam etdirəcəklər.



# Ziyarətgahların icması olmalıdır

**Azərbaycanda məscidlərlə yanaşı, ziyarətgahların da dini icması olmalıdır. Amma təəssüf ki, Azərbaycanda hazırda 700-ə qədər ziyarətgahın əksəriyyətinin icması yoxdur".**

Bunu APA-ya açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Nardarandakı Rəhimə Xanım ziyarətgahı ilə bağlı məsələyə münasibət bildirərkən deyib.

Mübariz Qurbanlı qeyd edib ki, ora məscid yox, ziyarətgahdır: "Buna baxmayaraq, orada da qanunun tələbi ilə icma olmalıdır, lakin təəssüf ki, indiyə kimi olmayıb və qanunsuz fəaliyyət göstərib. Buranın da fəaliyyət göstərməsi üçün icma yaradılmalıdır".

Komitə sədri bildirib ki, ümumiyyətlə, ölkədəki ziyarətgahlarla əlaqədar yeni qaydaların tətbiqinə ehtiyac var: "Ziyarətgahların hamısı yenidən qeydiyyata alınmalıdır, müəyyənləşdirilməlidir. Tarixi ziyarət yerləri var, bir də kimlərsə tərəfindən yol kənarında, haradasa yaradılan, tarixiliyə bağlı olmayan ziyarətgah deyilən yerlər var. Lakin həqiqi tarixi ziyarətgah yerlərinin hamısının icması olmalıdır. Onları icma idarə etməlidir. Əgər icmaları olmayacaqsa, onların heç biri fəaliyyət göstərməyəcək. Çünki qanun buna icazə vermir".



# Dövlət Komitəsinin kollektivi Ümummilli Liderin məzarını ziyarət edib

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəfatından 12 il keçir. Azərbaycanın bütün bölgələrində, o cümlədən paytaxt Bakıda Ümummilli Lider Heydər Əliyevin anım mərasimləri təşkil olunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollektivi dekabrın 12-də Fəxri xiyabana gedərək Ulu Öndərin məzarını ziyarət edib, abidəsinin önünə tər gül dəstələri qoyaraq xatirəsini yad ediblər.

# Dövlət Komitəsi "İlham Əliyev: Azərbaycan tolerantlıq örnəyidir" kitabının təqdimatını keçirib

***Dekabrın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) "İlham Əliyev: Azərbaycan tolerantlıq örnəyidir" kitabının təqdimatını keçirib.***




Təqdimat mərasimində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi, dini konfessiyaların rəhbərləri və təmsilçiləri, dini icmalar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Komitə sədri Mübariz Qurbanlı tədbiri giriş sözü ilə açaraq bildirib ki, müasir dövrdə Azərbaycanın dünya ölkələri sırasında öz layiqli yerini tutması və milli-mənəvi dəyərlərimizin qorunmasında, xüsusilə də tolerantlığın və multikultural ənənələrin inkişaf etdirilərək bütün dünyaya çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun davamçısı Prezident İlham Əliyevin xidmətləri misilsizdir. Dövlət Komitəsinin sədri deyib ki, Azərbaycan sözün həqiqi mənasında dünyada tolerantlığa nümunə olan ölkədir.

Dövlət Komitəsi tərəfindən nəşr edilən toplunun dini konfessiyalar üçün əhəmiyyətinin böyük olduğunu bildirən Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmərxanım Cavadlı Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizə diqqət və qayğısından danışıb.

Daha sonra Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein "İlham Əliyev: Azərbaycan tolerantlıq örnəyidir" kitabının əhəmiyyətindən danışaraq bildirib ki, Şərqlə Qərb, Şimalla Cənub arasında körpü olan Azərbaycan zəngin təbii resurslarla bərabər, tarixi tolerantlıq ənənələrinə malik ölkədir.

Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev çıxış edərək Azərbaycanın tolerantlıq modelinin dünyada örnəyə çevrildiyini vurğulayıb. O bildirib ki, Azərbaycanda təkcə çoxluğun mənsub olduğu İslam dininə yox, bütün dini icmalara dövlət tərəfindən daim xüsusi diqqət və qayğı göstərilir.

Təqdimat mərasimində Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Gennadi Zelmanoviç, Azərbaycan Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Roma Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Vladimir Fekete, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri Nəriman Qasımoğlu və Bakı Dövlət Universitetinin müəllimi Aqil Şirinov "İlham Əliyev: Azərbaycan tolerantlıq örnəyidir" kitabı ilə bağlı fikirlərini bölüşüblər.

# Saatlıda “Ənənəvi İslam dəyərləri və müasirlik” mövzusunda regional konfrans




Dekabrın 15-də Saatlı rayonundakı Gənclər Mərkəzində “Ənənəvi İslam dəyərləri və müasirlik” mövzusunda ikigünlük regional konfrans keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Saatlı Rayon İcra Hakimiyyətinin dəstəyi ilə təşkil olunan konfransda Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, rayon icra hakimiyyətinin başçısı Siraqəddin Cabbarov, Milli Məclisin deputatı Əflatun Amaşov, regionda fəaliyyət göstərən dini icma sədrləri, ağsaqqallar, din xadimləri, ziyalılar və gənclər iştirak ediblər.

Tədbirdə çıxış edənlər dövlət-din münasibətlərindən, ölkəmizin tolerantlıq ənənələrindən, xalqımızın bütün dinlərə və konfessiyalara dözümlü münasibətindən, cəmiyyətdə sabitliyin möhkəmləndirilməsində belə keyfiyyətlərin əhəmiyyətindən danışıblar.

DQİDK-nın sədri Mübariz Qurbanlı konfransda çıxış edərək, ümumbəşəri dəyərlərə münasibətdə zəngin təcrübəyə malik Azərbaycanda İslamın tarixi, milli-mənəvi dəyərlərimizdə yeri, bu dəyərlərin yad təsirlərdən qorunması ilə əlaqədar məsələlərdən danışıb. Komitə sədri geosiyasi maraqların getdikcə şiddətlənməsinin təhlükəli həddə çatdığını, belə bir şəraitdə dünyada radikalizm meyillərinin güclənərək dəhşətli nəticələrə səbəb olduğunu vurğulayıb. O bildirib ki, bu gün bəzi müsəlman ölkələrində baş verən hadisələr, silahlı münaqişələr məhz geosiyasi maraqların toqquşmasından irəli gəlir. Bəzi qüvvələr İslamı siyasiləşdirərək daxildə qarışıqlıq yaratmaqla onu gözdən salmağa çalışır, terrorla əlaqələndirmək istəyirlər. Komitə sədri bu cür hallara qarşı birgə mübarizənin əhəmiyyətini, bu sahədə maarifləndirmənin zəruri olduğunu önə çəkib.

Konfransda vurğulanıb ki, Azərbaycanda mövcud olan dini tolerantlıq və dövlət-din münasibətləri digər ölkələr üçün nümunədir. Bu münasibətlər uzun illərdən bəri zamanın sınaqlarından çıxaraq günümüzədək çatıb, keçmişimizdən bizə yadigar qalıb və ölkəmizdə aparılan düzgün daxili və xarici siyasət nəticəsində getdikcə inkişaf etməkdədir. Bu ənənəni qoruyub saxlamaq hər kəsin, xüsusilə də din xadimlərinin, ziyalıların və gənclərin mənəvi borcudur. Konfrans başa çatdıqdan sonra Komitə sədri Mübariz Qurbanlı Saatlıdakı “Cümə” məscidində dindarlarla görüşüb, məscidə dini kitablar hədiyyə edib.

* * *

Regional konfrans işini dekabrın 16-da Yeni Azərbaycan Partiyası Saatlı rayon təşkilatının sədri Lütvəli Şıxəliyevin moderatorluğu ilə plenar iclasla davam etdirib. Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkilindən, mövcud imkanlardan və perspektivlərdən danışıb. DQİDK-nın şöbə müdiri radikalizmlə mübarizədə dini icmaları fəal olmağa çağırıb. Ə.Zülfüqarov qeyd edib ki, Azərbaycanda dini radikalizmə qarşı mübarizə qanun çərçivəsində aparılır və bu sahədə ən effektiv vasitə maarifləndirmə işidir.

Daha sonra çıxış edən Saatlı rayon Ağsaqqallar Şurasının sədri Adil Nağıyev rayon ağsaqqallarının dini radikalizmlə mübarizədə hər zaman dövlətin yanında olduqlarını diqqətə çatdırıb.

Saatlı şəhər Cümə məscidinin axundu, bölgə qazısı Vadər Əliquliyev isə bölgədəki dini durum barədə geniş məlumat verib. Bununla da ikigünlük regional konfrans öz işini başa çatdırıb.



# "Dini radikalizmlə mübarizədə dini icmaların rolu" mövzusunda seminar-müşavirə keçirilib

**Lənkəranda**

Dekabrın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Lənkəranda “Dini radikalizmlə mübarizədə dini icmaların rolu” mövzusunda seminar-müşavirə keçirilib. Müşavirədə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, Lənkəran Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Dadaşov, Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Rüstəm Ramazanov, DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov, QMİ-nin bölgə qazısı Qəni Axundzadə, ziyalılar, Lənkəran, Lerik və Astara rayonundan olan din xadimləri və dini icma sədrləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Komitə sədrinin müavini Gündüz İsmayılov çıxış edərək, dini radikalizmi doğuran səbəblər, dövlət və cəmiyyət, eləcə də milli-mənəvi dəyərlər üçün təhlükəli sayılan belə tendensiyaların qarşısının alınmasında dövlət və dindarların arasında birliyin mövcud olduğunu vurğulayıb.

Lənkəran Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Dadaşov rayonda dini radikalizmlə mübarizədə mövcud həmrəylikdən danışıb, rayon ictimaiyyəti tərəfindən belə radikal addımların pisləndiyini və dövlətin radikallara qarşı tədbirlərinin birmənalı şəkildə dəstəkləndiyini bildirib.

DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov rayonda dini vəziyyət barədə ətraflı məlumat verib, radikalizmlə mübarizədə görülən tədbirlərdən danışıb. O qeyd edib ki, din adı ilə təqdim edilən radikal baxışlı ideoloji təlimlərin əsas məqsədlərindən biri cəmiyyət daxilində mövcud olan möhkəm həmrəyliyə pozucu təsir göstərməkdir.

Daha sonra çıxış edənlər – bölgə qazısı Qəni Axundzadə, QMİ-nin Lerik rayonu üzrə səlahiyyətli nümayəndəsi İlham Əliyev, Astara rayonu üzrə səlahiyyətli nümayəndə İlqar Həsənov və Lənkəran rayonu Ləj kənd məscidi dini icmasının sədri Samid Quliyev dini radikalizmlə mübarizədə maarifləndirmə işinin əhəmiyyətindən danışıblar.

rolu var.

Daha sonra DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Rüstəm Ramazanov “Radikal dini cərəyanlara qarşı mübarizədə ənənəvi İslam dəyərlərinin rolu” məruzəsi ilə çıxış edərək mövzunun aktuallığını tədbir iştirakçılarının nəzərinə çatdırıb.



**Qubada**

Dekabrın 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə



Qubada “Dini radikalizmlə mübarizədə dini icmaların rolu” mövzusunda seminar-müşavirə keçirilib. Müşavirədə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Quba Rayon İcra Hakimiyyətinin nümayəndəsi Tariyel İbrahimov, DQİDK-nın əməkdaşları, ziyalılar, din xadimləri və dini icma sədrləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı dini radikalizmi yaradan səbəblər və radikal cərəyanların törətdiyi fəsadlardan danışıb. O bildirib ki, cəmiyyət üçün təhlükə hesab edilən dini radikalizm hallarının qarşısının alınmasında din xadimlərinin əhəmiyyətli

Quba Rayon İcra Hakimiyyətinin nümayəndəsi Tariyel İbrahimov, bölgə qazısı Naib Səttarov mövzu ətrafında çıxış edərək İslamda radikalizmə yer olmadığını, sülh və barış dini olduğunu qeyd ediblər.

DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev, Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov dini radikalizmlə mübarizədə dini icmaların, dindarların rolunun vacibliyindən danışıblar.

Hər iki tədbirin sonunda mövzu ilə bağlı müzakirələr aparılıb.

*“Cəmiyyət və Din”*

# “Ermənistanın təcavüzü nəticəsində 900-ə yaxın mədəni-dini abidəmiz məhv edilib”





***AMEA-nın İnsan Hüquqları İnstitutu və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə dekabrın 4-də “Qafqazda mədəni-dini irsin qorunması” mövzusunda konfrans keçirilib. Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, AMEA-nın İnsan Hüquqları İnstitutunun direktoru Aytən Mustafayeva, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Azərbaycan Alban-Udin xristian İcmasının sədri Robert Mobili, Dövlət Komitəsi sədrinin müavinləri, şöbə müdirləri və ziyalılar iştirak ediblər.***

Tədbirin əsas məqsədi Qafqaz ərazisində mövcud olmuş mədəni-dini abidələrin vəziyyəti, həmin abidələrə qarşı bugünədək törədilmiş vəhşiliklərin müzakirəsi olub.

Konfransı giriş sözü ilə açıq elan edən AMEA İnsan Hüquqları İnstitutunun direktoru Aytən Mustafayeva ilk növbədə ermənilər tərəfindən işğal altında qalmış ərazilərdəki abidələrimizə qarşı törədilən vəhşiliklərdən bəhs edib, ermənilərin bu əməllərini dünya ictimaiyyətinin diqqətinə çatdırmağın vacibliyini vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək Qafqaz ərazisinin tarixən çoxmillətlilərin birgəyaşayış məkanı olduğunu, xüsusən Azərbaycanın öz multikultural dəyərlərinə görə dünyada tolerantlıq nümunəsinə çevrildiyini bildirib. Azərbaycanda müxtəlif dinlərə və etnik azlıqlara məxsus abidələrin xüsusi dövlət mühafizəsi altında olduğunu, onların dünya mədəni irsinin tərkib hissəsi kimi qorunduğunu deyən Komitə sədri Ermənistan tərəfindən işğal altında qalmış abidələrimizə eyni münasibətin göstərilmədiyini bildirib.

O deyib ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycanda 900-ə yaxın mədəni və dini abidə məhv edilib.

Komitə sədri qeyd edib ki, mədəni-dini irsin qorunması çox mühüm əhəmiyyət daşıyan məsələdir. Bununla bağlı bir çox beynəlxalq sənəd qəbul olunub. Azərbaycan da onları ratifikasiya edib.

Qafqazın dünyanın ən nadir bölgələrindən biri olduğunu bildirən Mübariz Qurbanlı deyib ki, bu ərazidə səmavi dinlərin hamısı formalaşıb, təşəkkül tapıb: “Hər bir kəs mədəni-dini irsi qorumalıdır. Ancaq çox təəssüf ki, dünyanın ayrı-ayrı bölgələrində xalqların tarixinə aid mirasların dağıdılmasının şahidi oluruq. Tarixi abidələrin dağıdılması yalnız bu gün baş vermir, bu, əvvəllər də baş verib. Təəssüf ki, bəşəriyyət hələ də keçmişindən ibrət götürmür”.

Daha sonra “Azərbaycanın işğal altındakı ərazilərində erməni vandalizmi” adlı qısametrajlı film nümayiş etdirilib.

Konfrans işini müxtəlif mövzularda çıxışlarla davam etdirib. Müzakirələr zamanı Qafqaz ərazisində mövcud olan mədəni-dini abidələrin qorunmasının və dünya mədəni irsi kimi gələcək nəsillərə çatdırılmasının vacibliyi vurğulanıb, Ermənistan tərəfindən işğal altında qalmış mədəni-dini abidələrin taleyi ətrafında geniş fikir mübadiləsi aparılıb, iştirakçılar müzakirə olunan məsələlərlə bağlı təklif və mülahizələrini bildiriblər.




# “Dini radikalizmlə mübarizə: əsas hədəflər” adlı elmi-praktiki konfrans keçirilib

Dekabrın 7-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Səbail Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə “Dini radikalizmlə mübarizə: əsas hədəflər” adlı elmi-praktiki konfrans keçirilib. Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı, YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev, Milli Məclisin komitə sədrləri Eldar İbrahimov və Hadi Rəcəbli, Azərbaycan Ağsaqqallar Şurasının sədri, millət vəkili Fəttah Heydərov, Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənov, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, dini icma sədrləri, DQİDK-nın sədr müavinləri, şöbə müdirləri, YAP Səbail rayon təşkilatının fəalları və ziyalılar iştirak ediblər.

Konfransı giriş sözü ilə açan YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev radikalizmin bu gün bütün dünya dövlətləri üçün ümumi problem olduğunu deyib. Dini radikalizmin yaranma səbəblərindən danışan YAP Səbail rayon təşkilatının sədri bu istiqamətdə dövlət tərəfindən lazımi tədbirlərin həyata keçirildiyini bildirib.

Daha sonra çıxış edən DQİDK-nın sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycanda tarixən formalaşmış dövlət-din münasibətləri modelinin hansısa qüvvələr tərəfindən təhrif edilməsinə, başqa modellərlə əvəz olunmasına imkan verə bilmərik. Komitə sədri son vaxtlar qanunvericilikdə dini ekstremizmə qarşı mübarizə ilə bağlı dəyişiklikdən, yeni qaydalardan danışaraq, Azərbaycanda radikalizmə qarşı ciddi mübarizənin aparıldığını bildirib.

Milli Məclisin komitə sədri Eldar İbrahimov çıxışında Parlament tərəfindən qəbul edilmiş “Dini ekstremizmə qarşı mübarizə haqqında” Qanunun əhəmiyyətindən danışıb.

Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənov qeyd edib ki, dini radikalizmlə mübarizədə əsas hədəf dini maarifləndirmə istiqamətində çoxşaxəli tədbirlərin həyata keçirilməsidir. Simran Həsənov bu istiqamətdə Qafqaz Müsəlmanları İdarəsinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə fəaliyyət göstərdiyini vurğulayıb.

Daha sonra çıxış edən Azərbaycan Ağsaqqallar Şurasının sədri, millət vəkili Fəttah Heydərov, Milli Məclisin komitə sədri Hadi Rəcəbli, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev ölkədə dini ekstremizmə qarşı mübarizədən və bütün dini icmalara yaradılan yüksək şəraitdən danışıblar.

# “Dinimiz mənəviyyatımızdır” mövzusunda tədbirlər baş tutub



“Dinimiz mənəviyyatımızdır” mövzusunda 12, 13 və 14 saylı cəzaçəkmə müəssisələrində tədbirlər keçirilib. Tədbirlərdə Ədliyyə Nazirliyi Penitensiar Xidmətin rəis müavini vəzifəsini icra edən ədliyyə polkovniki Rafiq Ramazanov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov, Komitənin Bakı şəhəri üzrə şöbəsinin müdir müavini Ceyhun Əliyev iştirak ediblər.

Tədbirlərdə çıxış edən Penitensiar Xidmətin rəis müavini vəzifəsini icra edən ədliyyə polkovniki Rafiq Ramazanov hazırda dünyada baş verən proseslər barədə məlumat verib, İslamın sülh dini olduğunu, terrora heç bir aidiyyəti olmadığını bildirib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov ölkəmizdə dinə münasibətin yüksək səviyyədə olmasını və Azərbaycanın tolerant ölkə olduğunu diqqətə çatdırıb. Ümummilli Liderimiz Heydər Əliyevin “Dinimiz mənəviyyatımızdır” kəlamını yada salaraq, bildirib ki, ibadət edən hər kəs milli kimliyini unutmamalıdır. Azərbaycanda bütün dinlərin nümayəndələrinə eyni münasibət göstərilir, məscidlər, sinaqoqlar, kilsələr tikilir, təmir olunur. S.Heydərov təəssüflə qeyd edib ki, bəzi qüvvələr İslamı terrorçu din kimi təbliğ edərək öz məqsədlərinə nail olmaq istəyirlər.

Komitənin Bakı şəhəri üzrə şöbəsinin müdir müavini Ceyhun Əliyev çıxış edərək, son vaxtlar İslam ölkələrində baş verən hadisələrdən danışıb. Hər üç tədbirin sonunda müəssisə rəisləri çıxış edərək, belə görüşlərin keçirilməsinin böyük əhəmiyyəti olduğunu bildiriblər.

# “Gənclər dini radikalizmə və ekstremizmə “yox” deyir” mövzusunda elmi-praktiki konfrans keçirilib



Dekabrın 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin birgə təşkilatçılığı ilə “Gənclər dini radikalizmə və ekstremizmə “yox” deyir” mövzusunda elmi-praktiki konfrans keçirilib. Tədbirdə DQİDK-nın sədri Mübariz Qurbanlı, YAP Siyasi Şurasının üzvü, Partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin Gənclər təşkilatları ilə iş sektorunun müdiri Vüsal Quliyev, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) sədri, millət vəkili Şahin İsmayılov, gənclər təşkilatlarının rəhbərləri və üzvləri iştirak edib.

YAP Siyasi Şurasının üzvü, Partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov tədbiri açıq elan edərək mövzunun aktuallığından danışıb.

DQİDK-nın sədri Mübariz Qurbanlı dini radikalizm və ektremizmin bu gün hər kəsi maraqlandıran və diqqət mərkəzində olan məsələlərdən biri olduğunu qeyd edib. Komitə sədri bildirib ki, dini radikalizm meyilləri o zaman meydana gəlir ki, kimlərsə dindən siyasi məqsəd, hakimiyyəti ələ almaq və yaxud hansısa bu və digər marağını ifadə etmək üçün istifadə edir. İslam dininin mənəviyyatımız, mədəniyyətimiz, mental dəyərlərimizlə bağlı olduğunu bildirən Mübariz Qurbanlı bu gün hər bir Azərbaycan vətəndaşının, xüsusən də gənclərin üzərinə dinimizi, milli-mənəvi dəyərlərimizi düzgün təbliğ etmək kimi məsuliyyətli bir vəzifə düşdüyünü deyib.

Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin Gənclər təşkilatları ilə iş sektorunun müdiri Vüsal Quliyev isə diqqətə çatdırıb ki, dövlət-din münasibətləri zəngin milli ənənələrimizə söykənir və müasir hüquq normaları ilə tənzimlənir. O bildirib ki, dinin cəmiyyət həyatında, xüsusən də gənclərin mənəvi-əxlaqi tərbiyəsində yeri və rolu düzgün istiqamətləndirilməli, mütərəqqi islami dəyərlərin təbliği, təşviqi müasir tələblər səviyyəsində aparılmalı, dindən siyasi məqsədlər üçün istifadəyə yol verilməməlidir.

Daha sonra ATGTİ-nin sədri, millət vəkili Şahin İsmayılov, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev, Bakı Dövlət Universitetinin müəllimi Aqil Şirinov, “İrəli” İctimai Birliyinin sədri Mirhəsən Seyidov, AGAT-ın sədri Nərgiz Xələf və digərləri çıxış edərək dini radikalizm və ekstremizə qarşı mübarizədə gənclər arasında maarifləndirmə tədbirlərinin mütəmadi davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Tədbirin sonunda gəncləri maraqlandıran suallar cavablandırılıb.

## Dövlət Komitəsinin sədri Saatlıda vətəndaşları qəbul edib

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dekabrın 15-də Saatlıdakı Gənclər Mərkəzində bu rayondan, eləcə də Sabirabad, İmişli, Beyləqan və Xocavənddən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Mübariz Qurbanlı, Milli Məclisin deputatı Əflatun Amaşov və Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, xatirəsini ehtiramla yad ediblər.

Qəbula gəlmiş vətəndaşlar əsasən dini icmaların dövlət qeydiyyatına alınması, onların fəaliyyəti, Quran kurslarının təşkili, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin təmiri və digər məsələlərlə bağlı müraciət ediblər. Vətəndaşları diqqətlə dinləyən Komitə sədri Mübariz Qurbanlı bir sıra müraciətləri yerindəcə həll edib, bəzi müraciətlərin araşdırılması üçün isə göstərişlər verib. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər baxılması və müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti qurumlara çatdırılmaq məqsədilə qeydiyyata alınıb.

# Brüsseldə beynəlxalq simpozium - “Tolerantlıq və birgəyaşayış modelləri: Yeni Avropa üçün Azərbaycan örnəyi”

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi və təşkilatçılığı ilə noyabrın 30-da Belçikanın paytaxtı Brüssel şəhərində “Tolerantlıq və birgəyaşayış modelləri: Yeni Avropa üçün Azərbaycan örnəyi” mövzusunda beynəlxalq simpozium keçirilib. Simpoziumun məqsədi siyasi və iqtisadi təlatümlərlə çalxalanan və günün çağırışlarına layiqli cavab verməkdə çətinliklərlə üzləşən Avropa məkanında uzun əsrlik dini və milli qarşılıqlı hörmətə əsaslanan Azərbaycan tolerantlıq modelini təbliğ etməkdir. Simpoziumda beynəlxalq ekspertlər, Avropa QHT-lərinin və beyin mərkəzlərinin rəhbərləri ilə yanaşı, Azərbaycandan DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Milli Məclisin deputatı Sahibə Qafarova, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev və Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Mefodiy Əfəndiyev iştirak etmişlər.**




Simpoziumda çıxış edən Avropa Şurasının Brüssel ofisinin rəhbəri səfir Torbyorn Froynes konfransın aktuallığından danışaraq qeyd edib ki, Avropa Şurasının yarandığı gündən iki yüzdən artıq beynəlxalq konvensiya və hüquqi norma qəbul edilsə də, onların işləməsi mexanizmlərində ciddi problemlər mövcuddur. Məhz buna görə də, bu gün Avropa məkanı ciddi sınaqlarla üz-üzədir. Bu cür müzakirələr Avropanın bu sınaqlardan uğurla çıxması və yeni modellərin axtarışı üçün xüsusi rol oynayır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxış edərək tarix boyu Azərbaycanda formalaşmış və mövcud olmuş tolerantlıq ənənələrindən, müxtəlif dinlərin və millətlərin ölkəmizdə dinc yanaşı yaşamasından, Azərbaycanda dini, milli ayrı-seçkiliyə, antisemitizm, ksenofobiya hallarına heç vaxt rast gəlinmədiyindən, həmçinin dövlət-din münasibətlərindən, Azərbaycan dövlətinin mövcud tolerantlıq ənənələrinin qorunub saxlanılması və daha da möhkəmlənməsi istiqamətində həyata keçirdiyi siyasətdən danışıb.

Avropa Şurasının Şimal-Cənub Mərkəzinin rəhbəri Jan Mari Heydt Avropanın müasir problemlərdən çıxması üçün yeni alternativ modellərə diqqət yetirməyin zəruriliyini vurğulayıb.

Milli Məclisin deputatı Sahibə Qafarova isə Azərbaycanda tolerantlığın möhkəmlənməsi və radikal meyllərin qarşısının alınması istiqamətində görülən tədbirlərdən və bu istiqamətdəki fəaliyyətdən danışıb.

Mərasimin sonunda Dövlət Komitəsi tərəfindən nəşr edilmiş Azərbaycanda tolerantlığı əks etdirən kitablar səfir Torbyorn Froynesə və digər iştirakçılara təqdim edilib.

Simpozium işini panellərlə davam etdirib. Birinci paneldə Avropanın müxtəlif ölkələrindən gəlmiş ekspertlər, qeyri-hökumət təşkilatlarının nümayəndələri və gənc fəallar müasir Avropanın üzləşdiyi islamofobiya, milli, dini, irqi ayrı-seçkilik məsələləri və bu problemlərdən çıxış yollarını müzakirə ediblər.

Simpoziumun 2-ci paneli Avropanın bəzi ölkələri ilə Azərbaycanın tolerantlıq modelinin əyani müqayisəsi üzərində qurulub. Bolqarıstanın baş müftisi Mustafa Hacı və Yunanıstanın Ksanti bölgəsinin müftisi Ahmet Mete çıxış edərək Avropada müsəlman azlığının üzləşdiyi ciddi problemlədən danışıblar. Bakı şəhəri Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev çıxışında Avropadan fərqli olaraq yəhudilərin Azərbaycanda heç vaxt antisemitizmlə üzləşmədiklərini, müsəlmanlar və digər dinlərin nümayəndələrinin əsrlər boyu qardaşlıq və qarşılıqlı hörmət şəraitində yaşadıqlarını bildirib. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Mefodiy Əfəndiyev isə Azərbaycanda xristianlığın qədim tarixindən danışaraq bu gün mövcud olan pravoslav kilsələrinin məhz azərbaycanlı müsəlmanlar tərəfindən tikilib bərpa edildiyini və bunun dünyada unikal hallardan biri olduğunu deyib.

Simpoziumun yekununda Azərbaycanın unikal tolerantlıq modelinin digər ölkələrdə də tətbiqinin mümkünlüyü və zəruriliyi qeyd edilib.

## Dövlət Komitəsində görüşlər

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı dekabrın 16-da Birləşmiş Bibliya Cəmiyyətinin nümayəndələri ilə görüşüb.

Görüşdə Birləşmiş Bibliya Cəmiyyətinin vitse-prezidenti Teriye Hartberg, Norveç Bibliya Cəmiyyətinin prezidenti Bernt Olsen və Özbəkistan Bibliya Cəmiyyətinin sədri Xalmat Aşımov iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanın tarixən müxtəlif konfessiyaların, xalqların, eləcə də ayrı-ayrı etiqad və inanclara malik etnosların sülh və əmin-amanlıq şəraitində birgə yaşadığı ölkə olduğunu bildirib. O, ölkədə yaşayan müxtəlif din və məzhəblərin nümayəndələrinə dövlət tərəfindən qayğı göstərildiyini deyib.

Azərbaycandakı dinamik inkişaf prosesini yüksək qiymətləndirən Birləşmiş Bibliya Cəmiyyətinin vitse-prezidenti Teriye Hartberg ölkəmizin malik olduğu uğurlu tolerantlıq modelindən danışıb. Qonaq Azərbaycandakı tolerantlıq mühitini və dinlərarası münasibətləri, ölkəmizin ötən illər ərzində bütün sahələrdə çox böyük inkişaf yolu keçdiyini xüsusi qeyd edib.

Görüşdə Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili, Roma Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Vladimir Fekete və "Həyat Sözü" xristian dini icmasının pastoru Rasim Xəlilov da iştirak ediblər.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dekabrın 18-də Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Robert Sekutanı qəbul edib.

Görüş zamanı Dövlət Komitəsinin sədri vurğulayıb ki, Azərbaycan tolerantlıq və multikultural dəyərlərə görə dünyada nümunə ola biləcək ölkələrdən biridir. Müxtəlif dini konfessiyaların sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiyini qeyd edən Mübariz Qurbanlı ölkəmizdə dini tolerantlığın təbliği və radikalizmin qarşısının alınması ilə bağlı görülən işlər barədə danışıb.

ABŞ səfiri Azərbaycan dövlətinin tolerantlığın təşviqinə yönəlmiş fəaliyyətini regionda və dünyada sabitliyə töhfə kimi qiymətləndirib. O qeyd edib ki, dini radikalizmə və terrorizmə qarşı mübarizə bütün ölkələrin səylərini birləşdirməyi zəruri edir.

Görüş zamanı Komitə sədri ABŞ Konqresinin Helsinki Komissiyasının rəhbəri, konqresmen Kris Smit tərəfindən irəli sürülmüş qanun layihəsi ilə bağlı fikirlərini ABŞ səfirinin diqqətinə çatdırıb. Bildirib ki, həmin qanun layihəsi bütövlükdə qərəzlidir və həqiqəti əks etdirmir. Bu tipli cəhdlər ABŞ-Azərbaycan münasibətlərinə xələl gətirməklə yanaşı, Azərbaycan ictimaiyyətinin haqlı narazılığına səbəb olub. Çünki qanun layihəsi ABŞ-da fəaliyyət göstərən erməni diasporunun və onlarla bağlı olan müəyyən dairələrin Azərbaycana qarşı növbəti təxribatıdır. Azərbaycanda tarixən müsəlman, pravoslav, yəhudi və digər dini icmaların dinc yanaşı şəkildə yaşamaları, ölkəmizin multikulturalizm və tolerantlıq ənənələri bütün dünyaya nümunədir. Qanun layihəsində Azərbaycanda dini azadlıqların pozulması haqqında iddiaların heç bir əsası yoxdur.

Komitə sədri Konqresin bu sənədə səs verməyəcəyinə ümidvar olduğunu bildirib.

Qarşılıqlı hörmət şəraitində keçən görüşün sonunda qonaq səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildirib.

## Nəsimi Rayon İcra Hakimiyyəti başçısı yanında Dini İşlər üzrə Komissiyanın geniş iclası keçirilib



Dekabr 8-də Nəsimi Rayon İcra Hakimiyyəti başçısı yanında Dini İşlər üzrə Komissiyanın geniş iclası keçirilib.

Hüquq-mühafizə orqanları, din xadimləri, ali və orta təhsil müəssisələrinin rəhbərləri, bələdiyyə və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə çıxış edən Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov respublikamızda mövcud olan dövlət-din münasibətləri, dinlərarası dialoq, dini tolerantlıq sahəsində həyata keçirilən dövlət siyasətindən bəhs edib. O bildirib ki, Ümummilli Lider Heydər Əliyevin xalqın birliyi yolunda göstərdiyi titanik fəaliyyətin bəhrəsini hər bir vətəndaşımız görür, bu kursu layiqincə davam etdirən Prezident İlham Əliyevin dini dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi istiqamətində apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycan tolerantlığı ilə bu gün bütün dünyaya örnəkdir. Ölkəmizdə mühüm rol oynayan strateji amillərdən biri ictimai-siyasi sabitlikdir. Mövcud olan milli həmrəylik, xalq-iqtidar birliyi ölkəmizin milli gücünün də artmasında ifadə olunur.

Təəssüflə qeyd edilib ki, Azərbaycanın inkişafından narahatlıq duyan bəzi xarici qüvvələr ölkəmizdə əlaltıları vasitəsilə sabitliyi pozmağa, hətta Konstitusiya quruluşunu dəyişmək üçün təxribatçı və qeyri-leqal fəaliyyət göstərir, hüquqazidd əməllərə yol verirlər. Nardaran qəsəbəsində "Müsəlman Birliyi" adlı hərəkatın din pərdəsi altında bir qrup radikal ekstremist təfəkkürlü ünsürlərlə təxribatlar, kütləvi iğtişaşlar, terror aktları törətməyə hazırlaşması vurğulanıb və bu hallara qarşı hamının ayıq-sayıqlıqla mübarizə aparmasının, xüsusi ilə gənclərin sağlam təlim-tərbiyəsinin xalqa, vətənə, dövlətimizə sədaqət hissləri ilə inkişafının zəruriliyi vurğulanıb.

Tədbirdə çıxış edən Nəsimi rayon prokuroru Salman Məmmədli qanunların aliliyinin təmin edilməsi, ölkə Prezidentinin siyasi iradəsinin reallaşması yolunda respublikamızın hüquq-mühafizə orqanlarının məqsədyönlü fəaliyyətindən danışaraq ekstremizmə, terrora, qeyri-sabitliyə cəhdlərin qarşısının qətiyyətlə alınmasına hazır olduğunu qeyd edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Aran və Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Hacı Fuad Nurullayev bildiriblər ki, ölkəmiz demokratik prinsiplərlə inkişaf edən tolerant məkandır və dövlətimiz tərəfindən bütün dinlərə və təriqətlərə sağlam fəaliyyət üçün şərait yaradılıb.

Nəsimi Rayon İcra Hakimiyyəti başçısı yanında Dini İşlər üzrə Komissiyanın üzvləri məsələ ətrafında geniş müzakirə apararaq, din pərdəsi altında Nardaran qəsəbəsində "Müsəlman Birliyi" adı ilə bir qrup silahlı cinayətkar dəstənin dinc qəsəbə sakinlərinə təzyiq göstərərək zorakı yollarla əhalinin məcburi şəkildə hakimiyyətə qarşı radikal çıxış etmələrini, nəzarətlərində olan saytlar və sosial şəbəkələr vasitəsi ilə sövq etmələrini, terrorçuluq fəaliyyətlərini qətiyyətlə pisləyiblər.

# Binəqədi rayonunda "Tolerantlıq nümunəsi Azərbaycan" layihəsi

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti və Binəqədi Rayon İcra Hakimiyyəti rayon ərazisindəki təhsil müəssisələrində "Tolerantlıq nümunəsi Azərbaycan" layihəsini həyata keçirib. Məqsəd Azərbaycanın milli mənəvi dəyərlərinin, azərbaycançılıq məfkurəsinin, ölkəmizin tolerantlıq mühitinin və bu sahədə dövlət siyasətinin geniş təbliğ edilməsidir.

Tədbirlərdə rayon icra hakimiyyəti başçısının müavini Aygün Əliyeva, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin baş məsləhətçisi, professor Etibar Nəcəfov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov və rayon ərazisindəki ümumtəhsil müəssisələrinin tarix müəllimləri iştirak ediblər.

"Multikulturalizm Azərbaycan Respublikasının dövlət siyasəti kimi" mövzusundakı dərsi aparan Etibar Nəcəfov mühazirəsində ölkəmizdə zəngin multikultural dəyərlərdən söhbət açıb, Azərbaycan xalqının tarixən mədəni yaşam tərzinə, əxlaqi dəyərlərə və yüksək mənəvi keyfiyyətlərə sahib olduğunu vurğulayıb. Qeyd olunub ki, məhz bu səbəbdən ölkəmizdə bütün xalqların nümayəndələri tarix boyu sülh və əmin-amanlıq şəraitində yaşayıb və yaşamaqdadırlar. 1990-cı illərin əvvəllərindəki böhranlı dövrdə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin formalaşdırmağa başladığı müasir müstəqil Azərbaycan dövlətinin əsas ideologiyasının təməllərindən biri ölkədəki bütün dinlərin və millətlərin nümayəndələrinə hörmətlə yanaşılması, dini azadlıqların qorunması və tolerantlıq dəyərlərinin bərqərar olması idi.



Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovun apardığı dərsdə isə "Müasir dövrdə Azərbaycan Respublikasında dövlət-din münasibətləri" mövzusunda məruzə dinlənilib. G.İsmayılov çıxışında milli ruhun qorunmasında, inkişaf etdirilməsində və gələcək nəsillərə çatdırılmasında güclü milli dövlətçiliyin mühüm rol oynadığını bildirib. Dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir.

Mövzular ətrafında təqdimatlardan sonra auditoriyanın sualları cavablandırılıb.

Müzakirə olunan məsələlərlə bağlı fikirlərini bölüşən tədbir iştirakçıları milli-mənəvi dəyərlərimizin qorunması və onun gənc nəsillərə aşılanmasında belə layihələrin əhəmiyyətini qeyd ediblər.

Layihə çərçivəsində növbəti dərslər isə "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Azərbaycan multikulturalizmi modelinin təbliği və təşviqi istiqamətində fəaliyyəti" və "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" mövzusunda dərslər təşkil olunub. Dərsləri müvafiq olaraq, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri Nəriman Qasımoğlu və Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şöbə müdiri Mövsüm Nağısoylu aparıblar.

"Tolerantlıq nümunəsi Azərbaycan" layihəsi dekabrın 12-dək davam edib.



# Dövlət Komitəsində 10 dini icmaya maliyyə yardımı ayrıldı, 5 dini icmaya şəhadətnamə təqdim edildi



25 Dekabr 2015 12:36

Dekabrın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) maliyyə yardımı ayrılmış 10 və yeni qeydiyyatdan keçmiş 5 dini icma sədrinin iştirakı ilə toplantı keçirilib. Toplantıda Dövlət Komitəsinin rəhbərliyi və dini icma sədrləri iştirak ediblər.

Komitə sədrinin birinci müavini Səyyad Salahlı çıxış edərək Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün imzaladığı müvafiq Sərəncamın əhəmiyyətindən danışıb. O bildirib ki, maliyyə vəsaitinin ayrılması ilə bağlı icmalar tərəfindən təqdim edilən layihələrin məqsədi yerlərdə dini maarifləndirmə işinin yüksək səviyyəyə çatdırılmasıdır.

Səyyad Salahlı dini icmalara həyata keçirəcəkləri layihələrdə milli-mənəvi dəyərlərimizi geniş şəkildə ictimaiyyətə çatdırmağı, maarifləndirmə işini daha da təkmilləşdirməyi tövsiyə edib. Eyni zamanda, Komitə sədrinin birinci müavini dini icma sədrlərinə məzhəblərarası qarşıdurmaya sövq edən hərəkətlərin qarşısını almağı, rəhbərlik etdikləri icmaların dini radikallıqla ideoloji mübarizədə fəallıq göstərmələrini, ümummilli maraqlardan çıxış etmələrini tövsiyə edib.

Sonda yeni qeydiyyatdan keçmiş dini icmalara şəhadətnamələr verilib.

Qeyd edək ki, cari il ərzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən Prezident İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncama uyğun olaraq, 87 dini icmaya maliyyə yardımı ayrılıb ki, bunlardan 19-u qeyri-islam, 68-i isə İslam dini icmasıdır. Ayrılmış vəsait hesabına dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində icmalar tərəfindən yerlərdə tədbirlər keçirilir.

Həmçinin, il ərzində Dövlət Komitəsi tərəfindən 52 dini icma qeydiyyata alınıb ki, bunlardan 49-u İslam, 3-ü isə qeyri-islam dini icmasıdır.



## Dini maarifləndirmə layihəsi çərçivəsində

***Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama əsasən, bölgələrdə tədbirlər davam etdirilir.***



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə bu qəbildən tədbirlər Yevlax şəhər Xaldan kənd Cümə məscidi dini icması, Gəncə şəhər Qazaxlar məscidi dini icması, Tovuz rayon dini icması, Xəzər rayonu Qala kənd məscidi dini icması, Bərdə rayonu Uğurbəyli kənd məscidi dini icması, Qusar şəhər Mustafa Kazdal məscidi dini icması, Beyləqan rayonunun Qarallar kənd məscidi dini icması və Xətai rayonu Əhmədli qəsəbəsi dini icması tərəfindən keçirilib.

“Dindarların radikalizmin təsirlərindən qorunması”, “Radikalizmə qarşı mübarizədə dini icmaların rolu”, “Şəhidlik zirvəsi və Azərbaycan şəhidləri”, “İslamın ailəyə verdiyi dəyər: Müasir cəmiyyətdə ailə dəyərlərimizin təbliği", “Dini radikalizmi yaradan səbəblər”, “Dini radikalizm və onunla mübarizə üsulları”, “Dindarların radikal təsirlərdən qorunması”, “Cəmiyyət və dini radikalizm”, “Tolerantlıq yurdu – Azərbaycan” və s. mövzularda təşkil edilmiş tədbirlərdə Dövlət Komitəsinin rəhbər şəxsləri, əməkdaşları, müstəqil ekspertlər, təhsil işçiləri, axundlar, dini icmaların üzvləri, ağsaqqallar, dindarlar, ziyalılar və gənclər iştirak ediblər.

Dövlət başçısı İlham Əliyevin dini icmalara dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı maliyyə yardımının ayırması barədə Sərəncamını dövlətin dinə olan növbəti qayğısı kimi qiymətləndirən natiqlər əmin olduqlarını bildiriblər ki, Prezidentin bu qərarı dini icmaların fəaliyyətində aktivlik yaradacaq, layihələr çərçivəsində keçirilən tədbirlərdə cəmiyyəti narahat edən neqativ halların aradan qaldırılması üçün səy göstəriləcək, İslam dini və milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində atılan bu təqdirəlayiq addım öz bəhrəsini verəcək.

Keçirilən tədbirlərdə çıxış edən natiqlər radikalizmin fəsadlarından, onun cəmiyyətə vura biləcəyi zərbələrin acı nəticələrindən danışıblar. Qeyd edilib ki, qloballaşan dünyamızda son zamanlar baş verən əksər münaqişələrin, müharibələrin əsas səbəbi dini radikalizm, ekstremizm, məzhəb təəssübkeşliyi və ayrı-seçkiliyidir. Bildirilib ki, bu cür hadisələrin yaşanmaması üçün xalqı maarifləndirmək, insanlar arasında tolerantlıq mədəniyyətini, birgəyaşayış ənənəsini daha da inkişaf etdirməyə böyük ehtiyac var.

Tədbirlərdə vurğulanıb ki, gənc nəsli dini və mənəvi-əxlaqi dəyərlərimizə yad olan radikal təriqətlərin təsirindən qorumaq məsuliyyəti bütün cəmiyyətin üzərinə düşür. Gənclərin ekstremist təmayüllü dini cərəyanlara qoşulmaması üçün milli-mənəvi dəyərlərə söykənən həqiqi dini dəyərlərlə bəslənməsi, dövlətinə bağlı, sədaqətli, vətənpərvər tərbiyə olunması önəmlidir. Həmçinin bildirilib ki, Azərbaycan dövləti bütün sahələrdə olduğu kimi, din sahəsində də ölkə vətəndaşları arasında düzgün təbliğat aparılmasına dəstək verməkdədir. Bu gün xalqımızın zəngin tolerantlıq ənənələrinin qorunub saxlanması və daha da inkişaf etdirilməsi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Tədbirlərdə çıxış edənlər ölkəmizdə tolerantlığın inkişafı, multikultural həyat tərzi, dinlər və məzhəblərarası münasibətlərin yüksək dostluq şəraitində inkişafına göstərilən diqqət və qayğıdan da danışıblar. Onlar bildiriblər ki, Azərbaycanda tarixən dindarlar əqidəsindən asılı olmayaraq, sülhün tərənnümçüsü olub, daim tolerantlıq ənənələrini yaşadıb və müasir dövrdə də milli-mənəvi dəyərlərimizin tərkibi kimi bu ənənələri davam etdirirlər.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.





***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov “www.teleqraf.com”un “Brifinq” rubrikasının qonağı olub. Müsahibəni ixtisarla təqdim edirik.***

# İslamın təbliği cəmiyyətin birləşdirilməsi amalına xidmət etməlidir



**Nərgiz Ehlamqızı: 2015-ci ilə yekun vururuq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin builki fəaliyyətini necə dəyərləndirirsiniz?**

- 2015-ci il bir az mürəkkəb olması, bir xeyli işgüzarlıq və intensiv maarifçilik işi aparılması baxımından yaddaşımda qaldı. Ötən ilin noyabr ayında Prezident cənab İlham Əliyevin Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Əsasnaməsinə bir sıra dəyişikliklər edildi. Dəyişikliklərdən sonra Dövlət Komitəsinin ştat vahidlərinin sayı artırıldı. Ötən ilə qədər bizim sədr, müavin, digər işçilər, hətta sürücü və xadimə ilə birlikdə cəmi 86 ştat vahidimiz vardı. Dəyişikliklərdən sonra isə 174-ə çatdı. Əlavə olaraq bölgə şöbələrinin sayı 9-dan 15-ə qaldırıldı. Mərkəzi Aparatda yeni şöbələr, xüsusilə də Dini maarifləndirmə işinin təşkili, Dinşünaslıq ekspertizası, Təhlil və proqnozlaşdırma şöbələri yarandı, işə yeni kadrlar cəlb olundu. Həm maarifçilik işinin aparılması istiqamətində kifayət qədər keyfiyyət və kəmiyyət dəyişikliyi baş verdi, həm də dini durumla bağlı təhlil və proqnozlaşdırma sahəsində bir xeyli müsbət nəticələrimiz oldu. Açıq şəkildə deyim ki, əvvəlki dövrdən fərqli olaraq, bizim indi dini sahədə gedən proseslərlə bağlı həm daha yaxından monitorinq aparmaq, həm də bunun təhlilini həyata keçirmək imkanlarımız var. Azərbaycanın elə bir rayonu, dini icması qalmayıb ki, Dövlət Komitəsinin rəhbərliyi orada olmasın. Təbii ki, bütün bunlarla yanaşı, müəyyən məsələlər də var ki, bunlar cəmiyyətin gözü qabağındadır. Bu məsələlərlə bağlı 2015-ci il bizim üçün həm də müəyyən mənada mürəkkəbliyi ilə yadda qaldı. Dini radikalizmlə bağlı aparılan iş, bu sahədə kənar təsirlər, xarici müdaxilələr və bunlara verilmiş reaksiyalar baxımından yola saldığımız ili bir az da mürəkkəb xarakterizə edərdim.

**N.Ehlamqızı: Təhsildən yayınan şagirdlərin valideynlərinin 100 manat cərimə olunması ilə bağlı təklif cəmiyyətdə etiraza səbəb oldu. Belə təklif hansı zərurətdən doğdu? Belə fikirlər səslənir ki, Nardaran hadisələri fonunda həmin qəsəbə və regionlardakı şagirdlərə görə bu cür addım atılacaq...**

- Əslində, bizim bu hadisələrdən qabaq apardığımız monitorinqlər və təhlillərə baxsanız, orada şagirdlərin qanunsuz dini tədbirlərə, ayin və mərasimlərə qatılması ilə bağlı kifayət qədər faktlar aşkar etdiyimizi görərsiniz. Hətta bununla bağlı hüquq-mühafizə orqanları tərəfindən də dəfələrlə tədbirlər həyata keçirilib. Bu təklif təkcə İslam dini ilə bağlı məsələ deyil. Sadəcə Nardaran hadisəsi bunu daha qabarıq şəkildə, hər kəsin diqqətini çəkəcək formada nümayiş etdirdi. O ki qaldı qanunvericilikdə dəyişikliyə, düşünmürəm ki, təhsildən yayınmağa görə bütün məsuliyyəti valideynin üzərinə qoymalıyıq. Azyaşlıların təhsildən uzaqlaşmasına görə məsuliyyəti təkcə valideynin üzərinə qoymaq doğru deyil. Paralel şəkildə məktəb də məsuliyyəti bölüşməlidir. Qanunvericilikdə 1 ay ərzində 7 gün dərs buraxılmasından söhbət gedir ki, burada hansısa üzrlü səbəbdən dərsə gələ bilməyən şagirdlərin cəzalandırılması nəzərdə tutulmur.

**Dilqəm Əhməd: Avropanın bir çox ölkələrində məktəblərdə Xristianlığın öyrənilməsi məcburi, bəzilərində isə qadağandır. Qardaş Türkiyədə Quran dərsləri var. Azərbaycanda necə olmalıdır? Yeniyetmələr dini ya valideynindən, ya kortəbii internetdəki materiallardan, ya da dini mağazalardakı kitablardan öyrənir. Bu məsələ necə həll edilməlidir ki, gələcəkdə radikalizmə yol açmasın?**

- Bu gün gənclərin beyinləri uğrunda savaş gedir. Əgər biz bu savaşda qalib olmaq istəyiriksə, hansısa təriqətdən öncə mütləq gənclərə dini bilgiləri özümüz verməliyik. Söhbət orta məktəblərdə dinin, şəriətin tədrisindən gedirsə, bu, real deyil, illüziyadır. Orta məktəblərdə dinlə bağlı biliklərin verilməsini özündə ehtiva edən fənnin tədrisi aparıla bilər. Bu, elə biliklər olmalıdır ki, gəncləri doğru istiqamətləndirsin. Bu gün orta məktəblərdə “Həyat bilgisi” adlı fənn tədris olunur. Bunun məqsədlərindən biri də din, milli-mənəvi dəyərlərimizlə bağlı şagirdlərə biliklərin verilməsidir. Mən də o fikirlə razıyam ki, “Həyat bilgisi”ndə dinlə bağlı biliklər səthidir. Bu kitabdakı biliklərin daha da dərinləşdirilməsini, yaxud yeni bir fənnin tədrisini də müzakirə edə bilərik. Təhsil Nazirliyi ilə birlikdə orta, ali və orta-ixtisas təhsil müəssisələrində dini maarifləndirmə işinin həyata keçirilməsi ilə bağlı birgə Tədbirlər Planı imzalamışıq. Plana uyğun olaraq Bakının 1 saylı məktəbindən tutmuş Daşkəsənin ən ucqar məktəblərinə qədər tədbirlər keçirəcəyik. Əlbəttə, həyata keçirdiyimiz maarifləndirmə tədbirləri intensiv olsa da, keyfiyyət baxımından tədrisi əvəz edə bilməz. Mənə elə gəlir ki, biz mərhələ-mərhələ bu prosesə başlamaq məqamına çatmışıq. Din sahəsi, xüsusilə də təhsillə bağlı məqamlar elə həssas məsələlərdir ki, burada presedent, yaxud eksperiment hallarından qaçmaq lazımdır.

**Taleh Şahsuvarlı: Azərbaycanda dünyəvi şəxslər tarixi mənbələrdə müəyyən həqiqətləri səsləndirməyə ehtiyat edir, çünki basqı gəlir, insanı kafirlikdə suçlayırlar. Bu da müzakirə mühitini pozur. Necə edək ki, müzakirə mühitini bərpa edək?**

- Dediyinizdə müəyyən qədər həqiqət var. Bəzən biz dinlə bağlı fikirlər söyləyəndə düşünürük ki, hamı bizim kimi fikirləşməlidir. Məsələn, hansısa məzhəbin və ya təriqətin nümayəndəsidirsə, onun üçün İslam mənimsədiyi şəri qaydalardan ibarətdir, fərqli fikrə açıq deyil. Bu, tək Azərbaycana yox, bütün İslam və qeyri-İslam dünyasına xas olan xüsusiyyətdir. Amma Azərbaycanda dini biliklər yetərli olmadığı üçün bizdə daha sərt formadadır. Son 20 il ərzində din sahəsində gedən proseslərə diqqət edək. Dindarlaşma prosesi gedir, əslində bu, özlüyündə müsbət prosesdir. Dindar olmaq dövlətə, bəşəri dəyərlərə, elmə qarşı çıxmaq deyil. Bəs proses necə gedir? Bir hissəmiz şiə, digərimiz sünni, nurçu, sələfidir. Cəmiyyətdə istər-istəməz sual yaranır: əsl İslam bunun hansıdır? Əlbəttə, məzhəbləşmə, təriqətləşmə bütün cəmiyyətlərdə var. Məsələ burasındadır ki, Azərbaycanda İslamın təbliği cəmiyyətin birləşdirilməsi amalına xidmət etməlidir. İslam dini müəyyən ölkələrdə birləşdirici faktor kimi çıxış edir. Götürək qardaş Türkiyəni, orada etnik zəmində üzə çıxan problemlər var. Türkiyə buna alternativ olaraq İslamı ortaya qoyur. İslam Türkiyə üçün birləşdirici faktordur. İslam, eyni zamanda İranın bütövlüyünü şərtləndirir. Azərbaycanda isə dindarlaşma getdikcə, cəmiyyətdə bölünmə tendensiyası artır. Deməli, bizim İslamla bağlı qarşımıza qoyduğumuz hədəflərdən biri o olmalıdır ki, İslam bizim üçün birləşdirici faktora çevrilsin. Üstəlik, İslamla bağlı ənənəmiz Sovetlər dövründə qırılma nöqtəsi yaşayıb. İslam barədə təsəvvürlərimiz ya xaricilərin bizə təqdim etdiyi, ya da kitablardakı İslamdır. Ortaya mütləq alternativ qoymalıyıq.

**T.Şahsuvarlı: Tarixən bizdə İslam olub, bizim İslamın konsepsiyası necə olmalıdır?**

- Azərbaycan, Türkiyə, İran, Ərəb İslamı kimi bölgünün tərəfdarı deyiləm. Şəriət baxımından İslam hər yerdə eynidir. Amma hər bir xalqın dinə yanaşması var. Azərbaycan xalqının dinə yanaşması hətta soykökümüz, dilimiz, qanımız eyni olan Anadolu türklərindən fərqlənir. Xalqların, cəmiyyətlərin həyat tərzini yalnız şəriət fomalaşdırmır. Dinlə yanaşı mənsub olduğumuz xalqın adət-ənənəsi, yaşadığımız dövlətin qayda-qanunları var. Hətta cəmiyyətdə stereotiplər, böyüdüyümüz ailə mühiti, aldığımız təhsilin təsirini də yaddan çıxarmaq olmaz. Təsəvvür edin ki, 1991-ci ildən sonra iranlı qardaşımız gəldi, İslamı təbliğ elədi, mən dindar oldum. Amma o, İslamla yanaşı öz həyat tərzini də təbliğ elədi, nəticədə mən iranlı dindar kimi düşünməyə başladım. Anadolu türkü olan qardaşımız gəlib dini təbliğ eləməyə başladı, mən dindar oldum, eyni zamanda həyat tərzim də Anadolu türkünə bənzədi. Beləliklə, bu cür dindarlaşma prosesi azərbaycanlı kimliyinin itirilməsi ilə nəticələnir. Yarıciddi-yarızarafat belə bir fikir formalaşıb ki, Azərbaycanda dindarların sayı artdıqca, sanki azərbaycanlıların sayı azalır. Mənim babalarım milli kimliyini saxlayaraq müsəlman olmağı bacarıb axı. Harada yazılıb ki, dindar olmaq üçün mütləq milli kimliyimi güzəştə getməliyəm?! Buna görə də qarşıda duran məqsədimiz gənclərin beyni uğrunda savaşı qazanmaq üçün kadr yetişdirməkdir. O kadr xaricdə oxumamalıdır, ərəb, iranlı, Anadolu türkü kimi deyil, azərbaycanlı kimi düşünməlidir, bunu isə özümüz yetişdirməliyik. Bir sözlə, əsas hədəfimiz milli kadr yetişdirməkdir.

**Aqil Lətifov: Savadlı kadrı kimlər yetişdirəcək? Qafqaz Müsəlmanları İdarəsi, Dövlət Komitəsi, universitetlər?**

- Kimsə deyə bilər ki, din mənim üçün həyat tərzidir. Bir başqası deyə bilər ki, mənim üçün din sadəcə hüquq məsələsidir, ona vicdan azadlığı prizmasından baxıram. Başqası söyləyə bilər ki, din milli-mənəvi dəyərdir. Bir başqası isə dinin sadəcə keçmişin bir hissəsi olduğunu deyə bilər. Yəni dinə bir neçə baxış bucağının olması mümkündür. Dövlət bizim hər birimizin baxış bucağından dinə baxmalıdır. Həmçinin dövlətin əlavə bir baxış bucağı, eynəyi də olmalıdır - bu, dövlətin milli, ictimai, siyasi və ideoloji nöqteyi-nəzərdən dinə baxış bucağıdır. Dinə vicdan azadlığı, milli-mənəvi dəyər nöqteyi-nəzərindən baxdıqda elə bir məsələ yoxdur, amma siyasi və təhlükəsizlik baxımından ciddi problemlər var. Bu gün din sahəsindəki problemlərin əksəriyyəti vicdan azadlığı yox, siyasi-ideoloji prizmadan üzə çıxır. Bu mənada İslamın yox, dövlət-din münasibətlərinin Azərbaycana uyğun modelini tam formalaşdırmalıyıq. Eyni zamanda, yetişdirdiyimiz kadrları bu modelə - Azərbaycan xalqının xarakterik xüsusiyyətinə, dinə baxışına uyğun formalaşdıracağıq.

**Qurban Yaquboğlu: Təyinatı hansı instansiya verir və niyə bütün məscidləri əhatə etmir?**

- Qanunla müəyyənləşdirilib ki, İslam ibadət evlərinə təyinatı Qafqaz Müsəlmanları İdarəsi həyata keçirir. Qanuna əsasən, QMİ təyinatla bağlı Dövlət Komitəsini məlumatlandırır. Təyinatda heç bir halda dövlət iştirak etmir. Təyinatın bütün məscidləri niyə əhatə etməməsinə gəlincə, burada kifayət qədər amillər var. Birincisi ondan ibarətdir ki, 2166 məscidin ölkə üzrə paylanması eyni deyil. Ölkədə məscidlərin ümumi tutumu təxminən yarım milyon nəfərdir. Azərbaycanda eyni vaxtda ibadətdə iştirak edənləri sayı 150 mindən çox deyil. Bu da ən çox bayram namazları və cümə günlərində olur. Deməli, bizim məscidlərin tutumu faktiki namaz qılanlardan dəfələrlə çoxdur. Amma məsələ burasındadır ki, məscidlərin sayı bütün bölgələr üzə eyni deyil. Məsələn, yalnız cənub bölgəsi üzrə 5 rayonda 700-ə yaxın məscid var. Amma Samux və Daşkəsən rayonunda cəmi 1 məscid var. Dindarlıq faizi bütün bölgələrdə eyni olmadığı üçün məscidlərin sayı da eyni deyil. Kütləvi müraciətlər olur ki, kəndimiz böyükdür, minlərlə əhalisi var, məscid tikmək istəyirik. Biz tövsiyə edirik ki, icma yaradın. Amma icma yaratmaq üçün 50 nəfər dindar tapa bilmirlər. 1990-cı illərdə belə demək olarsa, məscid bumu oldu, əksər rayonlarda çox sayda məscidlər tikildi. 1991-ci ildən indiki dövrə qədər götürsək, məscidlərin sayını, yəni 2166-nı ötən illərdəki günlərin sayına bölsək, riyazi nəticə budur ki, hər dörd gündən bir Azərbaycanda bir məscid inşa olunub. Bəlkə də, bunun nəticəsidir ki, bəzi məscidlərin qapısı bağlıdır, ibadət edən yoxdur.

**Nərgiz Ehlamqızı: Ölkəyə dini ədəbiyyatın axını güclüdür, ona nəzarət necə həyata keçirilir?**

- Dövlət Komitəsində Dinşünaslıq ekspertizası şöbəsi ölkəyə daxil olan, o cümlədən ölkədə çap olunan bütün dini ədəbiyyatı ekspertizadan keçirir. Hər gün onlarla dini kitaba rəy veririk. Azərbaycanda kifayət qədər dini kitab satan mağazalar var. Görəsən, bu qədər dünyəvi kitab satan mağazalarımız varmı? Bizim gənclərimiz dini ədəbiyyat oxuduğu qədər dünyəvi ədəbiyyat oxuyurmu? Bunlar hamısı paralel getməlidir. Əgər Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun, Məhəmməd Əmin Rəsulzadənin dünyəvi bilikləri olmasaydı, yalnız dini bilikləri olsaydı, Şərqdə ilk dünyəvi dövlətimiz yaranardımı? Təəssüf ki, bizdə dini kontingent əsasən dini məlumatlarla kifayətlənib. Fikrimcə, buna paralel olaraq dünyəvi təhsilin verilməsi mütləq gücləndirilməlidir.

# Azərbaycanda dini mərasimlərin təşkili tənzimlənəcək

***Bu fikir Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi ilə İctimai birliklər və dini qurumlar komitəsinin "Dini ekstremizmə qarşı mübarizə haqqında" qanun layihəsinin müzakirəsi zamanı səsləndirilib.***

İclasda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov deyib ki, bu gün Azərbaycanda 2166 məscid var. Onun sözlərinə görə, indiyədək 3 minə yaxın Azərbaycan gənci xaricdə dini təhsil alıb və ya hazırda təhsilini davam etdirir: "Azərbaycana qayıdandan sonra xaricdə dini təhsil almış gənclər o ölkələrə xas adət-ənənələri də təbliğ etməyə başlayırlar. Bu da cəmiyyətimizdə ciddi fikir ayrılığı yaradır. Yəni, tək aldıqları dini təhsili yox, həm də həmin xarici ölkələrin adətlərini də təbliğ edirlər. Bu da qanundakı boşluqdan irəli gəlir. Buna baxmayaraq, xaricdə təhsil almaq azaddır".

Komitə sədrinin müavini onu da qeyd edib ki, məhz qanundakı boşluqlar nəticəsində müxtəlif dini mərasimlər, küçə tamaşaları göstərilir: "Məsələn, Aşura mərasimi Azərbaycanda İslamın ümumi prinsipləri ilə keçirilir. Buna baxmayaraq, qanundakı boşluqlarla əlaqədar bu dini mərasim zamanı küçələrdə yürüşlər və dini tamaşalar göstərilir. Buna yol verilməməlidir. Eyni zamanda, Aşura keçirilən yerlərə müxtəlif rəngli, qara və qırmızı rəngli bayraqlar gətirilir. Dini mərasimlərin keçirilməsi azad olsa da, bu mərasimlərdə müxtəlif siyasi çalarlar olan atributlar olmamalıdır".

Gündüz İsmayılov Dövlət Komitəsinin təklifini də açıqlayıb: "Təklif edirik ki, ibadətgahlardan kənar, ictimai yerlərdə dini şüarların və digər dini atributların nümayiş etdirilməsi qadağan edilirsə, din xadimləri burada istisna təşkil etsin".

İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov isə bildirib ki, qanun layihəsinə əsasən dini mərasimlər din xadimləri tərəfindən keçiriləcək. Eyni zamanda, qanun layihəsində dini mərasimlər zamanı müxtəlif tamaşaların göstərilməsi də qadağan edilir.

## ZAQATALADA

# "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Zaqatala bölgəsi üzrə şöbəsinin və Zaqatala Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" adlı elmi-praktiki konfrans keçirilib.

Əsasən rayon gənclərinin iştirak etdiyi tədbirdə çıxış edən DQİDK Zaqatala bölgəsi üzrə şöbəsinin müdiri Mehman İsmayılov dini radikalizm, İslamın radikalizmə baxışı, ölkəmizin keçmiş dini ənənələrinin qorunması və eləcə də dövlətin ölkədəki bütün dini icmalara qayğısı barədə geniş məlumat verib.

Daha sonra çıxış edən Bakı İslam



Universiteti Zaqatala şöbəsinin müəllimi ilahiyyat üzrə fəlsəfə doktoru Asəf Qənbərov dini radikalizmi ortaya çıxaran amillər və dini radikalizmlə mübarizə vasitələrindən bəhs edib. Zaqatala rayonu Ailə, Qadın və Uşaq Problemləri Mərkəzinin direktoru Cövhərət İbrahimova, Zaqatala rayon Polis şöbəsinin İctimai Təhlükəsizlik bölməsinin rəisi, polis mayoru Aqşin Gülməmmədov və Zaqatala RİH-in baş məsləhətçisi Rəfiqə Bağırovan dini radikalizmin törətdiyi fəsadlar barədə geniş çıxış ediblər.

Sonda isə gənclərin mövzu ilə bağlı çox saylı sualları cavablandırılıb.

# "Milli-mənəvi dəyərlərimiz və bu dəyərlərin məktəblilərin tərbiyəsindəki rolu"



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Təhsil Nazirliyinin "Təhsil müəssisələrində uşaq və gənclərin milli-mənəvi və bəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" birgə əmri ilə təsdiq olunmuş Fəaliyyət Planına əsasən, DQİDK-nın Zaqatala Bölgəsi üzrə şöbəsi və Zaqatala rayon Təhsil şöbəsi dekabrın 1-də Zaqatala şəhər 2 saylı orta məktəbdə, dekabrın 2-də isə Zaqatala rayon Tala kənd 4 saylı orta məktəbdə "Milli-mənəvi dəyərlərimiz və bu dəyərlərin məktəblilərin tərbiyəsində-ki rolu" adlı seminarlar təşkil ediblər.

Yuxarı sinif şagirdləri və müəllim kollektivinin iştirak etdiyi hər iki tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Zaqatala Bölgəsi üzrə şöbəsinin müdiri Mehman İsmayılov ümumbəşər və milli-mənəvi dəyərlər barədə məlumat verib, bu dəyərlərin insan şəxsiyyətinin kamilləşməsindəki rolundan bəhs edib. Zaqatala rayon Təhsil şöbəsinin metodisti Günəş Əsgərova isə şagirdlər arasındakı ünsiyyətin inkişafında milli-mənəvi dəyərlərin rolu mövzusunda çıxış edib.

Sonda şagirdlərin sualları cavablandırılıb.



# "Tolerantlıq və dini dözümlülük Azərbaycan milli kimliyinin ayrılmaz hissəsidir"

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Beyləqan rayonunun Qarallar kənd məscidi dini icmasında "Tolerantlıq və dini dözümlülük Azərbaycan milli kimliyinin ayrılmaz hissəsidir" layihəsi çərçivəsində ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmə,k məqsədilə tədbir keçirilib.**



Tədbirdə DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin əməkdaşları, Qarallar kənd məscidi dini icmasının sədri, Beyləqan Rayon İcra Hakimiyyətinin Qarallar kəndi üzrə nümayəndəliyinin əməkdaşları, icma üzvləri, dindarlar, ziyalılar və gənclər iştirak ediblər.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin İmişli bölgəsi üzrə şöbəsinin müdiri Cavanşir Bəhrəmov Prezident İlham Əliyevin 27 Noyabr 2014-cü il tarixdə imzaladığı Sərəncama əsasən, ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işinin daha da gücləndirilməsi məqsədilə ayrılmış maliyyə vəsaitinin əhəmiyyətindən danışıb. Bildirib ki, bu gün xalqımızın zəngin tolerantlıq ənənələrinin qorunub daha da inkişaf etdirilməsi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Şöbənin əməkdaşı Ələkbər Quliyev çıxış edərək respublikada dövlətdin münasibətlərinin yüksək səviyyədə olmasından və dövlət başçısının dindarlara göstərdiyi qayğı və diqqətdən danışıb.

Beyləqan Rayon İcra Hakimiyyəti başçısının Qarallar kənd üzrə nümayəndəsi Kamandar Cəfərov, Qarallar kənd tam orta məktəbinin müəllimi Zakir Əhmədov və başqaları çıxış edərək Azərbaycanda tolerantlığın inkişafı, multikultural həyat tərzi, dinlər və məzhəblərarası münasibətlərin yüksək dostluq şəraitində inkişafından bəhs ediblər.

# Əliheydər Zülfüqarov: "Azərbaycanda dövlət-din münasibətləri yüksək xətlə inkişaf edir"



"Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra qanunvericiliyin təkmilləşdirilməsi, xüsusilə "Dini etiqad azadlığı haqqında" qanunun qəbulu və müvafiq olaraq bu qanuna əlavə və dəyişikliklərin edilməsi dövlət-din münasibətlərinin tənzimlənməsində böyük uğurlara imza atdı. Beləcə Azərbaycanda bütün dini etiqadlara (istər müsəlman, istərsə də qeyri-müsəlman dinlərin mənsubları üçün) bərabərhüquqlu şərait yaradıldı".

Bu sözləri SİA-ya Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov deyib.

Şöbə müdirinin sözlərinə görə, 2001-ci ildə DQİDK yaradıldıqdan sonra dini icmaların dövlət qeydiyyatına alınması prosesi Dövlət Komitəsində həyata keçirilməyə başlanıldı. Əvvəllər dini icmalar Ədliyyə Nazirliyində qeydiyyatdan keçirdilər: "2009-cu ildə "Dini etiqad azadlığı haqqında" Qanuna əlavə və dəyişikliklər edildikdən sonra Dövlət Komitəsində 644 dini qurum qeydiyyatdan keçmişdir. Konfessional baxımdan onların 620-si İslam, 24-ü isə qeyri-islam (xristian – 15; yəhudi – 6; krişna – 1; bəhai – 2) təmayüllüdür. Ölkə ərazisində 2166 məscid mövcuddur, onlardan 135-i Bakı şəhərində yerləşir. Bununla belə, ölkədə 13 kilsə, 7 sinaqoq fəaliyyət göstərir, 748 pir və ziyarətgah mövcuddur ki, onlardan 25-i Bakı-Abşeron bölgəsinin payına düşür".

Qurum rəsmisi bildirib ki, Azərbaycan Respublikasında 2166 məscid (işğal olunmuş rayonlar istisna olmaqla) mövcuddur. Onlardan 207-si Naxçıvan Muxtar Respublikasının payına düşür. Respublika üzrə məscidlərdən 1400-ü daimi, 213-ü mövsümi (əsasən Ramazan ayı, Qurban bayramı və Məhərrəmlik zamanı) fəaliyyət göstərir. Qeyd edək ki, sovetlər dövründə respublikada cəmi 17 məscid fəaliyyət göstərib. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə 814 məscid inşa olunub. Hazırda ölkədə 306 məscid dövlət tərəfindən tarixi abidə kimi qorunur".

Ə.Zülfüqarov deyib ki, Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dönəmində 1993-2003-cü illər ərzində ölkədə 517 məscid inşa olunub, 200-ə yaxın məsciddə əsaslı təmir işləri aparılıb, 16 məscid yenidən qurulub: "Dövlət vəsaiti hesabına 1998-ci ildə Bibiheybət məscid-ziyarətgah kompleksinin yenidən qurulmasına başlanılıb, 1999-cu ildə rəsmi açılışı olub. Azərbaycan Prezidenti İlham Əliyevin hakimiyyəti dövründə isə ölkədə 136 məscid inşa olunub, 80-dən artıq məsciddə əsaslı təmir və yenidənqurma işləri aparılıb, o cümlədən dövlət vəsaiti hesabına 10 məscid tikilib və ya əsaslı bərpa olunub. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamlarına və tapşırığına uyğun olaraq Bibiheybət məscid-ziyarətgah kompleksində, Təzəpir məscidində, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidlərində, Əjdərbəy, Şamaxı və Sumqayıt Cümə məscidlərində əsaslı təmir, bərpa və yenidənqurma işləri aparılıb. Binəqədi rayonunda ölkənin ən böyük məscidi "Heydər" məscidi inşa olunub. Hazırda Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamlarına əsasən, Gəncə şəhər İmamzadə ziyarətgahında bərpa işləri yekunlaşmaq üzrədir.

Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondu tərəfindən 8 məscid və ziyarətgah – Daşkəsən şəhər Cümə məscidi, Gəncə şəhər Şah Abbas və Həzrəti Zeynəb məscidləri, Xəzər rayonu Buzovna qəsəbəsi Cümə məscidi, Mərdəkan qəsəbəsi Pirhəsən ziyarətgahı, Şüvəlan qəsəbəsi Heydər məscidi, Binə qəsəbəsi Möhsün Səlim və İmam Rza məscidləri inşa və ya əsaslı təmir olunub".

O əlavə edib ki, Azərbaycanda multikulturalizmin inkişafı sahəsində də cənab Prezidentin xüsusi qayğısı nəticəsində müvafiq qurum olan Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb: "Qeyd etmək lazımdır ki, Azərbaycanda tək məscidlər deyil, kilsə və sinaqoqlar da dövlət qayğısı ilə əhatələnib. Xüsusilə qeyd etmək lazımdır ki, həm dövlət vəsaiti hesabına, həm də Heydər Əliyev Fondunun maddi dəstəyi ilə müvafiq təmir-bərpa işləri aparılıb.

Hazırda Bakı şəhərində 5 kilsə fəaliyyət göstərir. Gəncədə 1, Xaşmazda 1, Qəbələdə 1 kilsə mövcuddur. Eləcə də Oğuz rayonunda fəaliyyət göstərən kilsə var. Qax rayonunda isə 4 kilsə fəaliyyətdədir. Ümumilikdə Respublika üzrə cəmi 13 kilsə fəaliyyət göstərir. Bundan başqa yəhudi dini məbədi olan sinaqoqlardan Azərbaycanda 7-si mövcuddur. Onlardan 2-si Bakı şəhərində, 3-ü Quba, 2-si isə Oğuz rayonlarında fəaliyyət göstərir.

Cənab Prezidentin müvafiq sərəncamına uyğun olaraq hər il istər müsəlman, istərsə də qeyri-müsəlman dini icmalara dövlət tərəfindən maliyyə yardımları olunur. Bununla belə, həmin icmalarla əlaqələndirici görüşlər keçirilir, onların fəaliyyətlərinin inkişafı istiqamətində müvafiq tədbirlər görülür".

# Qurani-Kərim ilk dəfə Azərbaycan dilinə tərcümə olunub

***Tbilisidə Qurani-Kərimin Azərbaycan dilinə tərcümə olunmuş versiyasının təqdimatı keçirilib.***

Tədbir Qurani-Kərimdən ayənin oxunması ilə başlayıb.

Gürcüstan Müsəlmanları İdarəsinin sədri Ramin İgidov Qurani-Kərimin bu ölkədə ilk dəfədir ki, Azərbaycan dilinə tərcümə edildiyini deyib. O, din xadimlərinin Quranın Azərbaycan dilinə tərcümə olunaraq yayılmasını təşkil etdiklərini diqqətə çatdırıb. Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri vəzifəsini icra edən Zaza Vaşaqmadze, Baş nazirin milli məsələlər üzrə müşaviri Savalan Mirzəyev, Qərbi Gürcüstan Müsəlmanlarının müftisi Beqlar Kamaşidze və başqaları çıxış edərək İslam dininin məziyyətlərindən, Gürcüstanda dini tolerantlıqdan danışıb, Qurani-Kərimin Azərbaycan dilinə tərcümə olunmasını və pulsuz paylanmasını yüksək qiymətləndiriblər.

Tədbirdə Gürcüstanın dövlət və hökumət rəsmiləri, diplomatik korpusun nümayəndələri, elm, ictimaiyyət və din xadimləri iştirak ediblər.

# İslam vəhdət və birlik dinidir

Heç şübhə yox ki, İslam dünyasının və əsrin ən aktual problemlərindən, mövzularından biri də müsəlmanların birlik məsələsidir. Azərbaycan ərazisində mövcud olan tolerant abhava bu birliyi praktiki olaraq mümkün edir. Tarixdən məlumdur ki, Azərbaycanda heç vaxt dini zəmində qarşıdurma olmamışdır. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətləri sayəsində müxtəlif dini konfessiyalar, məzhəblər arasında sülhün, birgəyaşayışın daha da möhkəmlənməsi yolunda maarifçilik işlərinin aparılmasının nəticəsidir ki, Azərbaycan bu gün dünyada tolerantlıq məkanı kimi tanınır və bir çox ölkələrə nümunə göstərilir.

Dünyada, xüsusən də Yaxın Şərqdəki təəssüfdoğurucu hadisələrə nəzər saldıqda baş verən münaqişələrin əksəriyyətinin kökündə dini dözümsüzlük və onun ağır fəsadları olan radikalizm, ekstremizmin durduğunu görürük. Bu baxımdan məzhəblər arasında yaxınlaşma və anlaşma dialoqu qaçılmaz edir. Məzhəblərarası yaxınlaşma dedikdə, məqsəd heç də çoxlarının başa düşdüyü kimi, məsələn, sünnilərin şiə, şiələrin də sünni olması demək deyildir. Əksinə, hər bir müsəlman İslam dünyası tərəfindən tanınan və qəbul edilən ənənəvi məzhəblərdən birinin davamçısı ola bilər. Eyni zamanda, məzhəbləri birləşdirən əsas və müştərək cəhətləri ön sıraya gətirərək onların ətrafında birləşməklə İslamın birliyini qorumuş olarlar.



Məzhəblərarası birliyə çağırış sülh və əmin-amanlığa, qarşılıqlı anlaşmaya çağırış deməkdir. Bu dəvətin yolu və mexanizmi isə hikmətlə, öyüd-nəsihətlə, bir-birini başa düşməklə həyata keçirilir. Bunun üçün İslam dinində gözəl bir yol qoyulmuşdur – müsəlmanların birlikdə ibadəti olan Cümə namazı. Bu gün artıq Quba bölgəsinin bir sıra məscidlərində ənənəvi olaraq müxtəlif məzhəblər Cümə ibadətini birgə həyata keçirirlər. Buna ən bariz nümunə Xaçmaz rayonu Xudat şəhərində yerləşən Aşağı məscid, Şabran şəhəri Xıdır Zində məscidi, Siyəzən şəhəri Cümə məscidi, həmçinin Quba şəhər Ərdəbil məscidində hər həftə təşkil edilən cümə ibadətidir. Belə ki, Qurani-Kərimin "Cumuə" surəsinin "Ey iman gətirənlər! Cümə günü namaza çağırılan zaman Allahı zikr etməyə tələsin və alış-verişi buraxın..." 9-cu ayəsinə istinad edən Qafqaz Müsəlmanları İdarəsinin Quba, Qusar və Xaçmaz rayonları üzrə qazısı Hacı Naib Səttarov Quba şəhər "Ərdəbil" məscidində bütün müsəlmanları ətrafına toplayaraq Cümə ibadətində imamlıq edir. Onun bildirdiyinə görə, dini və etnik zənginliyi ilə fərqlənən Quba bölgəsini birləşdirən bir amal var ki, o da Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan Azərbaycançılıq ideologiyasıdır. Quba dindarları ölkənin qüdrətini daha da möhkəmləndirmək və inkişaf etdirmək üçün çalışan dövlət başçısına dəstək olmağa həmişə hazır olduqlarını bildirirlər. Eyni zamanda, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin həyata keçirdiyi dini maarifləndirici tədbirlər bölgə dindarlarının maariflənməsində və birlik nümayiş etdirməsində öz töhfələrini vermişdir. Bu işin hazırda da davam etdirilməsi təqdirəlayiq və əhəmiyyətlidir.

Qubada müxtəlif zamanlarda İslam birliyini pozmağa çalışanlar olsa da, nəticədə onlar öz məkrli niyyətlərinə çata bilməmişlər. Məsələn, 1918-ci ildə bütün Azərbaycanda və o cümlədən Quba qəzasında baş verən erməni-daşnak terroru zamanı olduğu kimi... Yaşlı Quba sakinlərinin bildirdiyinə görə, həmin soyqırımı zamanı daşnaklar Quba camaatını mərkəzi meydana yığmış, onların arasından bir sünni və bir şiə din xadimini önə çıxararaq hər birinə silah vermişlər. Və onlara bir-birinə atəş açmalarını əmr edərək sağ qalanın canını bağışlayacaqlarını demişlər. Əlbəttə, düşmənin məkrli siyasəti aydın idi – dini zəmində qarşıdurma yaratmaq. Düşmənin bu çirkin hiyləsini anlayan və ona aldanmayan din xadimləri isə verilən silahları bir-birinə deyil, daşnaklara tuşlayaraq onlardan bir neçəsini məhv etmişlər. Cəsarətli din xadimlərimiz düşmənin hiyləsinə qarşı çıxmaqla özlərini dinini, xalqını, vətənini sevən, məzhəblərarası qarşıdurmaya yox deyən əsl müsəlman kimi göstərmiş və gələcəkdə baş verə biləcək təhlükənin qarşısını canlarını fəda etməklə almışlar.

Bu tarixi fakt da sübut edir ki, bölgə əhalisi heç zaman düşmənlərin, kənar qüvvələrin dini amildən istifadə edərək öz siyasi-iqtisadi maraqlarını həyata keçirməsinə şərait yaratmamışdır. Xalqımız bundan sonra da dövlətçiliyimizin, milli-mənəvi dəyərlərimizin, ölkədəki tolerantlıq mühitinin qorunması istiqamətində birlik, vəhdət əzmi nümayiş etdirəcəkdir.

***Hazırladı: Ağasiyev Elnur, DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin məsləhətçisi***

# Dünya müsəlmanları Məhəmməd peyğəmbərin (s) mövludu gününü qeyd edir



Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Mövlud ən-Nəbi – Məhəmməd Peyğəmbərin (s) mövludu günü qeyd edilib.

Əvvəlcə Qurandan ayələr oxunub. Sonra Şeyxülislam Allahşükür Paşazadə bütün müsəlmanları Məhəmməd peyğəmbərin (s) doğum günü münasibətilə təbrik edərək bildirib ki, İslam ənənələrinə görə, bayram Ay təqviminin üçüncü ayına, İslamda ən çox ehtiram bəslənilən Rabiul-əvvəl ayının 12-ci gününə təsadüf edir. İslam dininin banisi Məhəmməd peyğəmbər (s) məhz bu ayda anadan olub və bu ayda vəfat edib.

A.Paşazadə deyib: "2015-ci ildə bayram Azərbaycan Prezidenti İlham Əliyevin doğum gününə təsadüf edib. Azərbaycan xalqı dini mərasim və ənənələri hətta sovet dövründə belə unutmayıb, onlara əməl edib. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra Ümummilli Lider Heydər Əliyev məbədlərin bərpasına və inşasına xüsusi diqqət yetirib. Etiqad azadlığı Azərbaycan Konstitusiyasında təsbit olunub. Hazırda onun kursunu Prezident İlham Əliyev davam etdirir".

Tədbir iştirakçılarına Ümummilli Lider Heydər Əliyevin, habelə ailəsi ilə birlikdə Prezident İlham Əliyevin müqəddəs Məkkə şəhərini ziyarət etmələrindən söz açan sənədli film, Heydər məscidinin açılışında Azərbaycan Prezidentinin nitqinin səsləndiyi kadrlar nümayiş etdirilib. Tədbirdə İranın Azərbaycandakı səfiri Möhsün Pakayin iştirak edib.

Bildirilib ki, müstəqilliyini bərpa edən zaman Azərbaycanda cəmi 17 məscid var idi, indi isə ölkədə yüzlərlə məbəd – məscid, kilsə və sinaqoq fəaliyyət göstərir. Bayramın keçirilməsi ənənələri qədim köklərə malikdir. Hazırda mövlud günü yüksək səviyyədə qeyd edilir.

A.Paşazadə xatırladıb ki, Azərbaycan xalqının Ümummilli Lideri 1993-cü ilin sentyabrında Təzəpir məscidini ziyarət edən zaman çıxışında qeyd edib ki, Məhəmməd peyğəmbərin (s) mövludu və fəaliyyəti dünya tarixində böyük hadisə olub, İslam dininin əsasını qoyub.

Şeyxülislam hamını Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, Milad və Yeni il bayramları münasibətilə təbrik edib.

Akademik Vasim Məmmədəliyev, İranın Azərbaycandakı səfirliyi yanında İran Mədəniyyət Mərkəzinin rəhbəri İbrahim İbrahimi, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini hacı Salman və başqa natiqlər Peyğəmbərimizin (s) böyük missiyasından və mənəvi örnəyindən, müsəlman ümmətinin sıx birləşməsində xidmətlərindən söz açıblar.

# Azərbaycandakı dini icma rəhbərləri ABŞ Konqresinə müraciət ünvanlayıblar

**Qafqaz Müsəlmanları İdarəsi (QMİ), Rus Pravoslav və Katolik kilsələri, Dağ və Avropa yəhudiləri, Alban-Udi icmalarının rəhbərləri Amerika Birləşmiş Ştatları Konqresinə müraciət ünvanlayıblar.**

Müraciətdə Helsinki Komissiyasının sədri Kris Smitin hazırladığı "Azərbaycanda Demokratiya Aktı" adlı qanun layihəsinin baxılması üçün Konqresə təqdim olunduğu xatırladılır. Məsələnin siyasi məqamlarına və müəllifin lobbiçilik meyillərinə toxunmadan göstərilən qanun layihəsində Azərbaycanda dini etiqad azadlığı ilə əlaqədar yer almış yanlış mülahizələrə dair narazılıq bildirilir və bu, ölkəmizdə mövcud olan dini tolerantlıq mühitinə qarşı qərəzli kampaniya kimi qiymətləndirilir.

"Bizi təəccübləndirən başlıca amil - cari il ərzində Azərbaycana ABŞ-ın siyasət, ictimaiyyət və kütləvi informasiya vasitələri nümayəndələrinin çoxsaylı heyətlərinin gəlməsinə və dini etiqad azadlığı sahəsində real vəziyyətlə tanış olaraq çox yüksək qiymətləndirilməsinə baxmayaraq, qayıdandan sonra fikir dəyişdirərək ölkəmizdəki mövcud gerçəkliyi əks etdirməyən belə sənəd layihəsinin təqdim olunmasıdır. Biz bunu müəllifin məlumatsızlığı ilə əlaqələndirə bilərdik, lakin müasir dünyada informasiya əldə etmək imkanları bu fikri istisna edir", - deyə müraciətdə qeyd olunur.

Diqqətə çatdırılır ki, tarixən Azərbaycanda ənənəvi dini icmalar - müsəlman məscidləri, xristian pravoslav, katolik, Alban-Udi kilsələri, yəhudi sinaqoqları fəaliyyət göstərib və bu gün də öz dini ayinlərini sərbəst şəkildə yerinə yetirməkdədirlər. Ölkənin müsəlmanlara məxsus 800-dən artıq məbədində ibadət edən sünnilər və şiələr birlikdə namaz qılırlar ki, bu faktın özü dünyaya örnək ola biləcək məzhəb birliyinin nadir nümunəsidir. Ümumən, bu gün Azərbaycanda qədim Alban-Udi kilsələri ilə yanaşı, pravoslav və katoliklərin 12 kilsəsi, 6 yəhudi sinaqoqu mövcuddur. Dövlət tədbirlərində, dini bayram və mərasimlərdə biz birlikdə iştirak edirik. Dövlətin mənəvi dəstəyi və maddi yardımı sayəsində yüzlərlə dini ibadət ocağı, məscidlər, kilsələr, sinaqoqlar inşa və təmir edilərək dindarların istifadəsinə verilib, dini konfessiyaların ehtiyacları təmin olunub. 2014-cü ildə Prezidentin müvafiq Fərmanı ilə Azərbaycanda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Ölkədə son illər keçirilmiş Dünya Dini Liderlərinin konfransları, "Bakı prosesi" adlanan Multikulturalizm forumları mövcud olan tolerantlıq mühitinin bariz nümunələridir.

Azərbaycanda başqa dinlərə mənsub insanların inanclarına hörmətlə yanaşılır. Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar Bakının mərkəzində yerləşən erməni kilsəsinin öz fəaliyyətini dayandırmasına baxmayaraq, həmin məbəd də dövlət tərəfindən təmir və bərpa edilib, ona məxsus kitablar və atributlar qorunub saxlanılıb. Hətta Qriqorian kilsəsinin qoruyucusu erməni millətindəndir. Halbuki Azərbaycanın işğal edilmiş ərazilərində - Dağlıq Qarabağda və ətraf bölgələrdə məscidlərimiz, ziyarətgahlarımız, kilsələrimiz, qəbiristanlıqlarımız erməni qəsbkarları tərəfindən xarabazarlığa çevrilib. Biz çox təəssüf edirik ki, konqresmen hazırladığı sənəd layihəsində ibadət imkanlarından məhrum olan Qarabağ dindarlarının pozulmuş insan haqları barədə heç bir söz demir.

Qanun layihəsində göstərilir ki, Azərbaycanda Baptist, Yeddinci gün adventistləri, "Pentecostals" nümayəndələri leqal statusa malik deyillər və guya acınacaqlı vəziyyətdədirlər. Bununla bağlı bildirmək istəyirik ki, Azərbaycanda bu cərəyanların nümayəndələri icma deyil, fərdi şəkildə fəaliyyət göstərirlər və onlar icma şəklində təmsil olunmaq üçün müvafiq icra strukturlarına müraciət etməlidirlər. Bu hal əksər dövlətlərin qanunvericilik praktikasında mövcuddur. Əgər söhbət Azərbaycanda müvəqqəti yaşayan əcnəbilərdən gedirsə, sual olunur, hansı ölkədə müvəqqəti yaşayan şəxslərə onların etiqadına uyğun icmalar və yaxud məbədlər yaradılır?

Göstərilən layihə mətnində qeyd olunur ki, Azərbaycanda guya çoxlu sayda dini məhbus mövcuddur. Birmənalı şəkildə bəyan edirik ki, həmin şəxslər dini fəaliyyətlərinə görə deyil, əksinə dini şüarlardan sui-istifadə edərək terrorizmə çağırış, dövləti silah gücünə çevirməyə cəhd kimi radikal və ekstremist təmayüllü hərəkətlərinə görə azadlıqdan məhrum edilmiş cinayətkarlardır. Niyə radikal və ekstremist təmayüllü şəxslər ABŞ-da və ya Avropada "cihadist" adlandırılırlar, Azərbaycanda isə "vicdan məhbusu?!" Biz əminik ki, Amerika Birləşmiş Ştatlarında belə terror əməllərini törədənlər ədalət məhkəməsindən qaça bilməzlər.

Müraciətdə qeyd edilir ki, Azərbaycanda mövcud olan tolerantlıq mühiti sözdə deyil, əməldədir. Canlı nümunə bu müraciətin altındakı imzalardır. Biz heç bir zaman Azərbaycanda dini zəmində qarşıdurma yaşamamışıq və buna yol verməmişik. Bu tolerantlıq bizim ruhumuzda, qanımızdadır və Azərbaycan dövlətinin apardığı siyasətin tərkib hissəsidir.

"Sizi Azərbaycan gerçəkliklərinə obyektiv reaksiya verərək, layihənin müzakirəsi zamanı bizim mövqeyimizi də nəzərə almağa və düzgün qərar verməyə çağırırıq. Müraciətimizi Vatikan Dövlətinin və dünya katoliklərinin sabiq rəhbəri Roma Papası II İoann Pavelin 2002-ci ildə Azərbaycana səfəri zamanı ölkəmizdə üç səmavi dinə göstərilən qayğıya görə səsləndirdiyi dua ilə bitirmək istəyirik: "Qoy üç böyük din tərəfindən izhar edilmiş bu məhəbbət şahidliyinə görə Yaradana həmd olsun!", - deyə müraciətdə qeyd olunur.

Müraciəti QMİ-nin sədri şeyxülislam Allahşükür Paşazadə, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr, Roma Katolik Kilsəsinin Azərbaycandakı Apostol Prefekturasının ordinarisi Vladimir Fekete, Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Milix Yevdayev, Avropa Yəhudilərinin Bakı Dini İcmasının rəhbəri Gennadi Zelmanoviç, Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili imzalayıblar.

## BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR

# MASALLI

***Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Masallı bölgəsi üzrə şöbəsi əvvəllər mövcud olmuş Cənub bölgəsi üzrə şöbənin əsasında yaradılmışdır. Şöbə Masallı, Cəlilabad və Yardımlı rayonlarını əhatə edir. Həm etnik, həm də dini cəhətdən ölkəmizin rəngarəng regionlarından olan cənub bölgəsi Azərbaycan tolerantlığının əsl nümunəsidir. Bölgə əhalisi hər zaman dövlətçiliyimizə, milli-mənəvi dəyərlərimizə, tarixin yaddaşından süzülüb gələn adət-ənənələrimizə sadiqliyi ilə seçilmişdir. Burada müxtəlif dinlərin, xalqların nümayəndələri daim sülh, dostluq, qardaşlıq şəraitində yaşamış və bir-birilərinin xeyir-şər işlərini, milli-dini bayramlarını birgə keçirmişlər.***



Şöbənin ərazisində 312 məscid, 66 ziyarətgah, 2 ixtisaslaşdırılmış dini mağaza fəaliyyət göstərir. Hazırda Masallı rayonundan 60, Yardımlı rayonundan 11 və Cəlilabad rayonundan 3 olmaqla, ümumilikdə 74 dini icma dövlət qeydiyyatından keçmişdir. Əksəriyyəti fəal olan həmin icmalar öz fəaliyyətləri ilə bölgəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi və inkişafına xidmət edirlər.

**Bölgədə təxminən 460-a yaxın din xadimi fəaliyyət göstərir. Bugünədək Masallı rayonundan 35, Cəlilabad rayonundan 21 və Yardımlı rayonundan 7 nəfər olmaqla, ümumilikdə 63 din xadimi Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təşkil olunmuş attestasiyadan keçmiş və rəsmi olaraq dini ayinlərin icrası ilə məşğuldurlar. Hazırda bölgədə dini ayinləri icra edən şəxslərin 50-dən çoxu Bakı İslam Universitetini, 120-dən çoxu isə ölkəmizdəki müxtəlif mədrəsələri bitirmişdir.**

Müstəqilliyimizin ilk illərində başqa sahələrdə olduğu kimi, dini sahədə də ölkəmizdə, o cümlədən cənub bölgəsində qeyri-müəyyənlik və xaos hökm sürürdü. Yalnız Ulu Öndər Heydər Əliyev xalqın tələbi və təkidi ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra ölkə dindarları dövlətimizin dinə və dindarlara olan münasibətində müsbət dəyişiklikləri hiss etdilər. Məhz Ümummilli Liderin apardığı uzaqgörən və dahiyanə siyasət nəticəsində ölkəmizdə dini və milli sabitlik bərqərar oldu.

Bu gün dindarlar ibadətləri üçün hər cür şəraiti yaradan dövlətimizə güvənir və onun rəhbərliyinin bütün ictimai-siyasi fəaliyyətinə dəstək verirlər. Bölgədə hazırkı dini sabitliyə nail olunması uzun müddət aparılan dini maarifçilik işlərinin nəticəsidir. Belə ki, il ərzində həm Azərbaycan Respublikası Multikulturalizm, millətlərarası və dini məsələlər üzrə Dövlət Müşaviri Kamal Abdullayevin bölgəyə səfərləri, həm də DQİDK-nın aprel ayında Cəlilabad rayonunda və avqust ayında Yardımlı rayonunda "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda keçirdiyi regional konfranslar bölgə dindarları arasında böyük əks-sədaya səbəb olmuş və dini maarifçilik istiqamətində aparılan işlərə müsbət təkan vermişdir. Dövlət Komitəsi sədri Mübariz Qurbanlının bölgəyə səfər edərək yerli dindarları, ziyalıları, ağsaqqalları və cəmiyyətin müxtəlif təbəqələrindən olan insanları qəbul edərək problemi ilə yaxından maraqlanması da Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin tənzimlənməsi, ölkədəki və bölgədəki dini durumun hərtərəfli təhlil edilməsi baxımından işimizi daha yaxşı qurmağa öz təsirini göstərmişdir. Bütün bunlarla yanaşı, həm şöbənin özünün, həm də yerli struktur və ictimai təşkilatlarla birgə keçirdiyi maarifləndirici tədbirlər, seminar-treninqlər bölgədə nəzərəçarpacaq izlər qoymuşdur. Dini maarifləndirmə sahəsində görülən işlər nəticəsində bölgə dindarları, gəncləri və ictimaiyyəti zərərli cərəyanlar, dini radikalizm, tolerantlıq, ənənəvi İslam, dinlərarası və məzhəblərarası dostluq, dövlət-din münasibətləri və s. kimi mövzularla daha yaxından tanış olmuş və bu cür məsələlərdə lazımi biliklərə yiyələnmələrinə imkan yaranmışdır.





Masallı bölgəsi üzrə şöbə yeni yaranmasına baxmayaraq, qısa müddət ərzində öz fəaliyyətini günün tələblərinə uyğun qurmuş və bölgədə dini sabitliyin, qanunçuluğun qorunması istiqamətində müəyyən işlər görmüşdür. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikası Konstitusiyasını, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununu, Dövlət Komitəsinin rəhbərliyinin göstəriş və tövsiyələrini rəhbər tutur. Xüsusi vurğulamaq lazımdır ki, görülən bütün işlər müvafiq rayonların İcra Hakimiyyəti yanında fəaliyyət göstərən dini komissiyalar, Qafqaz Müsəlmanları İdarəsinin yerlərdəki qazı və səlahiyyətli nümayəndələri ilə birgə, qarşılıqlı surətdə həyata keçirilir. Bölgənin nüfuzlu din xadimlərinin istər dini maariflendirmə işləri, istərsə də dövlət maraqlarına xidmət edən başqa istiqamətlərdə gündəlik fəaliyyətləri nəticəsində dini ayin və mərasimlərin keçirilməsi zamanı xurafata, mövhumata yol verilməsi halları aradan qaldırılmışdır.

Dini təhsil ocaqları, xeyriyyə cəmiyyətləri adı altında missionerliklə məşğul olan, dini ayin və mərasimlərdə iştirak məqsədilə xaricdən gələn emissarların ölkədən kənarlaşdırılması da öz müsbət nəticəsini vermişdir. Artıq bölgədə hansısa xarici ölkə dindarının geyimində gəzən, dini mərasimlərdə minbərlərdə oturub, öz ölkəsinin maraqlarına uyğun moizə edən şəxslərə rast gəlmək mümkün deyil. Həmçinin dini mərasimlərdə qanunsuz yürüşlər keçirərək dini-siyasi şüarlar səsləndirmək, baş yarıb, zəncir vurmaq hallarına da rast gəlinmir. Əvəzində, dini mərasimlərdə müstəqil dövlətimizin bayrağının dindarlarımız tərəfindən dalğalandırılması halları çoxalmaqda və ənənə halını almaqdadır.

Sirr deyil ki, dünyada baş verən qarışıqlıqlar fonunda bəzi radikal dini təriqətlərin nümayəndələri Azərbaycana, eyni zamanda bölgəyə də ayaq açmışlar. Bu günə kimi görülən məqsədyönlü, maarifləndirici tədbirlər nəticəsində bölgədə radikal təriqətlərin daşıyıcılarına tək-tək rast gəlinir və onlar burada əsaslı baza yarada bilməmişlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 noyabr 2014-cü il tarixli Sərəncamı ilə dini icmalara maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə 2,5 milyon vəsaitin ayrılması şöbəmizdə də dini maarifləndirmə işlərində yeni mərhələ açmışdır. Belə ki, Dövlət Komitəsi tərəfindən bölgəmizdəki 6 icmaya müxtəlif layihələrin həyata keçirilməsi məqsədilə vəsait ayrılmışdır. Həmin dini icmalar bölgənin əsas spesifik xüsusiyyətlərini nəzərə almaqla, dini radikalizm, erkən nikahlar, gənclərin radikal təsirlərdən qorunması, həmçinin zərərli vərdişlərlə mübarizə mövzularına həsr edilmiş layihələri çox uğurla həyata keçirmişdir. Ümumilikdə mütəxəssislərin, dini ekspertlərin və DQİDK rəsmilərinin də iştirakı ilə dini icmalarda layihələrlə bağlı 24 maarifləndirmə tədbiri təşkil olunmuşdur. Bu tədbirlərin bir hissəsi dini icmalarda, bir hissəsi geniş ictimaiyyət qarşısında, bir hissəsi də orta məktəblərdə və digər təhsil ocaqlarında keçirilmişdir. Tədbirlər zamanı mütəxəssislər tərəfindən çoxlu məruzələr oxunmuş, eyni zamanda iştirakçılara həmin dini icmalar tərəfindən çap edilmiş xeyli əyani vəsait paylanılmışdır. Bütün tədbirlər yerli və mərkəzi mətbuat orqanlarında işıqlandırılmışdır. Beləliklə, layihələrlə bağlı keçirilən dini maarifləndirmə işləri bölgədəki dövlət-din münasibətlərinin müsbət inkişafına xidmət etməklə, əhali, xüsusən də gənc dindarlar arasında böyük marağa səbəb olmuşdur.

Bölgədəki dini maarifləndirmə işinin davamı olaraq Dövlət Komitəsinin rəsmi nəşrləri - "Dövlət və Din" jurnalı, "Cəmiyyət və Din" qəzetinin nüsxələrinin dini icmalar, ayrı-ayrı dövlət strukturları və dindarlar arasında yayılmasını göstərmək

⇨ 13

## BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR

# MASALLI

12 ⇦ olar. Həmçinin Dövlət Komitəsi tərəfindən dini maarifləndirmə məqsədilə şöbəmizə ayrılmış minlərlə nüsxə dini ədəbiyyat pulsuz olaraq bölgə dindarları, ziyalılar, gənclər və əhalinin digər təbəqələri arasında paylanılmışdır. Bu işlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

Hazırda bölgədə etnik xalqların və başqa millətlərin az da olsa, nümayəndələri yaşayır. XIX əsrdə Cəlilabad rayonunun keçmiş Prişib (Göytəpə), Novoqolovka, Petrovka, Andreyevka, Privolnoye (Günəşli kəndi), Masallı rayonunun Kalinovka kəndlərində Xristianlığın Molokan və Subbotnik qollarının nümayəndələri məskunlaşmışlar. Lakin ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra bu millətlərin nümayəndələri öz tarixi vətənlərinə qayıtsalar da, onlardan bir qismi Azərbaycanı özlərinə vətən bilib, burada yaşayırlar. Onların Göytəpə şəhərində və Cəlilabad rayonunun Günəşli kəndində kilsə binası indiyədək qalmaqdadır. Bu kilsə binaları tolerant xalqımız tərəfindən tarixi abidə kimi qorunur.



Bölgədə dini tarixi abidələrə və dindar şəxslərə həmişə xüsusi hörmət və ehtiram mövcud olmuşdur. Bu baxımdan bölgədə insanların inanc yerinə çevrilmiş 66 ziyarətgah vardır. Bunlardan 25-i Masallıda, 37-si Yardımlıda, 4-ü isə Cəlilabad rayonunda yerləşir. Bu ziyarətgahların çoxu imam nəslindən olan seyidlərin və din alimlərinin, az qismi isə Səfəvilər dövrü bölgəyə səfər etmiş dövlət və din xadimlərinin məqbərələridir. Yerli əhali bu ziyarətgahları göz bəbəyi kimi qorumuş və onları milli-mənəvi dəyərlər toplusu kimi qəbul edərək dini tarixi abidə halına salmışdır. Hazırda bu ziyarətgahların bir qismi müntəzəm, bir qismi isə yalnız dini mərasimlər vaxtı fəaliyyət göstərir.



Ötən ilin sonlarında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının dini mərasimlərin və ehsan süfrələrinin sadələşdirilməsi ilə bağlı verdiyi tövsiyələr də bölgə əhalisi tərəfindən müsbət qarşılanmışdır. Belə ki, qısa müddət ərzində bölgədə keçirilən yas mərasimlərinin xeyli sadələşdirildiyi müşahidə edilmiş, eyni zamanda yas mərasimlərinin müddəti üç günə endirilmişdir. Həmçinin ehsan mərasimlərində israfçılığın qarşısının alınması ilə bağlı da müəyyən işlər görülmüşdür. Bu işdə ziyalılar, ağsaqqallar və bəzi dindarlar xüsusi nümunə göstərmişlər.

Şöbə əməkdaşlarının Dini işlər üzrə komissiyalar, həmçinin hüquq mühafizə orqanlarının işçiləri ilə birgə gördüyü işlərin ən önəmlisi hər il Məhərrəmlik ilə əlaqədar təşkil olunan mərasimlər öncəsi keçirilən geniş tərkibli, qabaqlayıcı və istiqamətverici tədbirlərdir. Bu kimi tədbirlər Məhərrəmlik mərasimlərinin qanun çərçivəsində, milli-mənəvi dəyərlərimizə hörmətlə təşkili üçün müvafiq şəraitin yaradılması məqsədi daşıyır. Görülmüş tədbirlərin nəticəsi olaraq, builki Məhərrəmlik mərasimləri bölgədə çox sakit və sabit keçmiş, bütün tədbirlər yalnız məscidlərdə və ya onların həyətində tikilmiş mərasim zallarında təşkil olunmuşdur.



İl ərzində şöbə bölgədə dini məzmunlu ədəbiyyatın, əşya və məmulatların satışına nəzarət məqsədilə müvafiq satış məntəqələrində monitorinqlər keçirmişdir. Hazırda bölgədə 2 (Masallı 1 və Cəlilabad 1) dini ədəbiyyat və əşya satan mağaza rəsmi şəkildə fəaliyyət göstərir. Aparılan yoxlamalar zamanı bəzi satış məntəqələrinin qanunsuz fəaliyyətinə son qoyulmuşdur. Eyni zamanda, bölgəyə daxil olan hər bir rayonda dini durumun monitorinqi aparılaraq təhlil edilmiş və bu barədə Dövlət Komitəsinə müvafiq arayışlar təqdim olunmuşdur.

Bütün qeyd edilənlərlə yanaşı, demək olmaz ki, bu istiqamətlərdə görüləcək işlər tam başa çatdırılmışdır. Dövlət Komitə-sinin rəhbərliyi tərəfindən respublikada dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində başlamış genişmiqyaslı işin yalnız bir ili başa çatmaq üzrədir, qarşıda isə çox mühüm vəzifələr durur.

***Miryəhya BƏDİROV,***
***DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin müdiri***

---

## *Sumqayıtda "Heydər Əliyev siyasəti: Tolerantlıq" kitabının təqdimatı keçirilib*

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Heydər Əliyev siyasəti: Tolerantlıq" kitabının təqdimatı keçirilib. Təqdimat mərasimində DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin müdiri Şirin Cəfərov, Komitənin Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov, Qafqaz Müsəlmanları İdarəsinin Sumqayıt bölgəsi üzrə qazısı Rauf Sərdarov, Ə.Əliyev adına Sumqayıt Tibb Kollecinin Həmkarlar İttifaqının sədri Xatirə Nəcəfquliyeva, ictimaiyyət nümayəndələri və tələbələr iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin müdiri Şirin Cəfərov ölkəmizdə multikulturalizm və bu istiqamətdə yürüdülən dövlət siyasəti, tarixən formalaşmış tolerantlıq ənənələrinin qorunub saxlanılmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətlərindən bəhs edib.

DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov çıxış edərək "Heydər Əliyev siyasəti: Tolerantlıq" kitabının məzmunu və mahiyyəti barədə məlumat verib. Nahid Məmmədov, xüsusilə Ulu Öndər Heydər Əliyevin xalqın birliyi yolunda göstərdiyi titanik fəaliyyətin bəhrəsini hər bir vətəndaşımızın gündəlik həyatında hiss etdiyini, bu kursu uğurla davam və inkişaf etdirən Prezident İlham Əliyevin dini dəyərlərin qorunub saxlanması və təbliği istiqamətində yürütdüyü məqsədyönlü siyasət nəticəsində hazırda Azərbaycanda mövcud tolerantlıq mühitinin bütün dünyaya örnək göstərildiyini qeyd edib.

Ə.Əliyev adına Sumqayıt Tibb Kollecinin Həmkarlar İttifaqının sədri Xatirə Nəcəfquliyeva belə bir tədbirin kollecdə təşkilinə görə öz minnətdarlığını bildirib.

Sonda kollecin tələbələrinə Dövlət Komitəsi tərəfindən nəşr olunmuş kitablar təqdim edilib.

---

## Təbriz İslam dünyasının turizm şəhəri elan olunub

İranın Şərqi Azərbaycan əyalətinin mərkəzi Təbriz şəhəri 2018-ci il üçün İslam ölkələrinin nümunəvi turizm şəhəri seçilib. Bu barədə qərar İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələri turizm nazirlərinin Nigerin paytaxtı Niameydə keçirilən 9-cu konfransında, ekspertlərin iclasında qəbul edilib.

Qeyd edək ki, 2017-ci il üçün isə Səudiyyə Ərəbistanın Mədinə şəhəri İslam dünyasının nümunəvi turizm şəhəri elan olunub.



# Yaradılış sirri

**"...Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!"**

(Muminun, 14)



**(II hissə)**



Ötən sayımızda bildirdik ki, istər yaradılış aləmi olsun, istərsə də onun içində qərar tutan insan bir neçə mərhələdə yaradılmışdır. Amma yanlış anlaşılmasın deyə, qeyd etmək istəyirik ki, mərhələli deyildikdə heç də bir vaxtlar Darvinin irəli sürdüyü təkamül nəzəriyyəsi nəzərdə tutulmur. Mərhələli yaradılış təkamüldən tamamilə fərqli gerçəklikdir. Çünki mərhələli yaradılışda bir ünsürün başqa hala düşməsi və bu mərhələnin bir neçə dəfə təkrarlanması, təkamül deyildikdə isə bir canlının başqa canlıya çevrilməsi nəzərdə tutulur ki, bu da İlahi qanunlara ziddir.

### İlk insan

Quran ilk yaradılan insan barəsində iki kəlmədən istifadə edir: "bəşər" və "insan" ("Sad" və "Hicr" surələri). Hər iki surədə insan adlı varlığın torpaqdan və sudan yaradıldığına işarə olunur. Quranın təqdim etdiyi yaradılış mərhələsini darvinizmdən fərqləndirən başlıca cəhət də elə budur. Yəni Qurana görə, həm insanın, həm də onun yaranmasında əsas ünsür olan su və torpağın da yaradıcısı Allahdır! Halbuki, darvinizmdə yaradılışdan söhbət belə getmir. Burada müzakirə olunan mövzu bir varlığın başqa varlığa çevrilməsidir. Ancaq biz bunu elm adlandıra bilmərik. Çünki elm adlandırılan gerçəklik bütün dövr və şəraitdə eyni nəticəni verməlidir. Halbuki Darvinin iddiasında bunu müşahidə edə bilmirik. Yəni belə bir iddia irəli sürüldükdən sonra heç bir canlı (öz zahiri görünüşünü müəyyən qədər dəyişsə də) başqa varlığa çevrilməmişdir. İnsanın başqa varlıqdan yarandığını nə İslam, nə də digər səmavi dinlər qəbul edir. Darvinizm nəzəriyyəsinin əsassız olduğunu yuxarıda adları çəkilən surələrdəki "bəşər" və "insan" ifadələri də sübuta yetirir. Belə ki, insanı yaradan Allah onun su, torpaq, gil və s. halları üçün də "bəşər" və "insan " kəlmələrini istifadə edir. Darvinizmi yalnız o halda ciddi nəzəriyyə hesab etmək olardı ki, bəşər və insan kəlmələri onun son və yekun mərhələsi üçün istifadə olunaydı. Bir halda ki, Quranda biz bunun tam əksini görürük.

### Cənnətdən Yer üzünə

Adəmin cənnətdə yaradıldığı fikrini müdafiə edənlər onun Yer ünsürlərindən, lakin cənnətdə Yer üzü üçün yaradıldığı qənaətindədirlər. **"(Sonra) Biz (Adəmə) dedik: "Ey Adəm, sən zövcənlə (Həvva ilə) cənnətdə qal və hər ikiniz oradakı meyvələrdən, istədiyiniz kimi, bol-bol yeyin, yalnız bu ağaca (buğdaya) yaxın gəlməyin! Yoxsa (özünüzə) zülm edənlərdən olarsınız"** (Bəqərə, 35). Onlar Adəmin unutqanlıq ucbatından qadağan olunmuş meyvəyə yaxınlaşdığını və bu unutqanlığına görə tövbə etdikdən sonra Yer üzünə endirildiyini söyləyirlər. Adəmin timsalında sonradan Yer üzündə doğulub-törəyəcək insanlara İlahi nemətlərin qədrini bilmələri, əks təqdirdə onlardan məhrum olacaqları xəbər verilir. Onu da qeyd edək ki, Adəmin necə və nə zaman cənnətdə qərar tutması haqqında Quranda hansısa məlumat verilmir. Bizə məlum olan onun qadağan olunmuş meyvədən yeyib, oranı tərk etməsidir. Elə isə Adəmin Yer üzündə deyil, cənnətdə yaradıldığı və oradakı həyatı barədə məlumatlar haradan əldə olunub? Nəzəriyyə sahibləri bunu Peyğəmbərdən (s) nəql edilən və mötəbər adlandırdıqları hədislərlə sübuta yetirməyə çalışırlar.

### Cənnət... hansı cənnət?!

Adəm cənnət adlı məkanda yaradılmışsa, o, hansı cənnət olmuşdur? Ümumiyyətlə, Quranda cənnət necə təqdim olunur? Qurana görə, cənnət möminlərin (əməli-saleh insanların) mükafat olaraq qalacaqları əbədi məkandır. Burada belə bir sual ortaya çıxır: əgər Adəm həqiqətən Yer üzünün ünsürlərindən yaradılıb, sonra cənnətə aparılmışsa, etdiyi günaha və ya unutqanlığına görə əbədi məkandan necə çıxarıla bilərdi?! İlk növbədə onu bildirək ki, Allah-Təala kitabında Öz vədinə xilaf çıxmadığını xəbər verir. Adəmin cənnətdə yaradıldığı fikrini müdafiə edənlər "o necə cənnətdir ki, oraya şeytan belə, yol tapa bilir?" sualına Qurandan heç bir əsası olmayan belə bir cavab verirlər: Şeytan Allahın dərgahından qovulduqdan sonra qazandığı addır. Belə ki, bundan əvvəl onun adı İblis (və ya Əzazil) olmuş və o, neçə min mələklə birlikdə namaz qılmışdır. Halbuki Quran "Kəhf" surəsinin 50-ci ayəsində İblisin mələklərdən deyil, cinlərdən olduğunu açıq-aşkar bəyan edir: "(Ya Rəsulum!) Xatırla ki, bir zaman mələklərə "Adəmə (təzim məqsədilə) səcdə edin!" – demişdik. İblisdən başqa hamısı səcdə etdi. O, cinlərdən (cin tayfasından) idi..." Onda belə bir sual yaranır: İblis mələk deyildisə, onda nə üçün Allah-Təala ona da mələklərlə birlikdə Adəmə səcdə etməsini buyurur? Bu suala belə cavab verə bilərik: biz Quranda Allahın birbaşa İblisə müraciət etdiyini görürük. "Əraf" surəsinin 12-ci ayəsi buna misal ola bilər: "(Allah iblisə): **"Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?" – deyə buyurdu..."** Elə isə nə üçün Allah bir yerdə İblisə mələklərlə birlikdə, bir yerdə isə təklikdə müraciət edir. Bunu başa düşmək üçün sadə bir müqayisə aparaq. Tutaq ki, bir sinifdə 30 şagird var, onlardan 25-i əlaçı, 5-i isə tənbəldirsə, Allah 25 nəfərə xas xüsusiyyətlə müraciət edər. Bunu nəzərə alaraq, Quranda mələklərin Allah qarşısındakı itaətkarlığını bəyan edən üç ayəyə əsasən onların İlahi əmrə birmənalı olaraq boyun əydiklərini və bir an da olsun Onun əmrindən çıxmadıqlarını görürük.

### Cəələ və xələqə

Ardıcıllıq baxımından Adəm barədə ilk xəbər "Bəqərə" surəsinin 30-cu ayəsində keçmişdir. Bəzi tərcümələrdə ayədə istifadə olunan "cəələ" kəlməsi yanlış olaraq "yaratmaq" mənasında da qələmə verilmişdir. Halbuki burada yaradılış deyil, hansısa vəzifəyə təyin olunma nəzərdə tutulur. Belə ki, "cəələ" ərəb dilində "bir şeyi haradasa qərar vermək" mənasını bildirir. Lakin bununla razılaşmayanlar "Hicr" surəsinin 28-ci və "Sad" surəsinin 71-ci ayələrində "xələqə" kəlməsinin məhz yaratmaq mənasında işləndiyini əsas gətirirlər.

**1.** (və iz qalə rəbbukə lilmələikəti inni xaliqun bəşərən min səlsalin min səmain məsnun) - "(Ya Rəsulum!) Xatırla ki, bir zaman Rəbbin mələklərə belə demişdi: "Mən quru və qoxumuş (dəyişib başqa şəklə düşmüş) qara palçıqdan insan yaradacağam!"

**2.** (və iz qalə rəbbukə lilmələikəti inni xaliqun bəşərən min tinin) – "(Ya Peyğəmbər!) Xatırla ki, o zaman sənin Rəbbin mələklərə belə demişdi: "Mən palçıqdan bir insan (Adəmi) yaradacağam".

Bəli, hər iki ayədə "cəələ" kəlməsi yaratmaq mənasında istifadə edilib. Lakin diqqət yetirmək lazımdır ki, hər iki yerdə "cəələ" kəlməsi ilə yanaşı, insanın yaradılışında istifadə olunan "səlsal" və "tin" - palçıq kəlmələri də keçir. Eyni surədə (Sad surəsində) "cəələ" kəlməsi Davud peyğəmbər (ə) barədə də işlədilərək onun Yer üzünə xəlifə təyin edildiyinə işarə olunur.

### Qeybdən xəbər?!

"Bəqərə" surəsinin 30-cu ayəsinin ikinci hissəsində diqqəti başqa bir məqam çəkir. O da mələklərin Allaha **"Biz Sənə şükür etdiyimiz, şəninə təriflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?"** sualı ilə müraciət etmələri ilə əlaqəlidir. Verilən sualın özü barədə belə bir sual yaranır: mələklər bəşər övladının qan tökəcəyini haradan bilirdilər? Cavabında iki fikir irəli sürülür: 1) Mələklər bunu lövhi-məhfuzdan oxumuşlar. 2) İnsanlardan əvvəl yer üzündə cin tayfaları olmuş, onlar bir-birinin qanını tökmüş və mələklər də bunu görüb, Allaha belə bir sual vermişlər. Bu yanaşma qeyri-ciddidir. Əvvəla ona görə ki, lövhi-məhfuz materiya halında olan və üzərində olub-keçənlər yazılan lövhə deyil, bəlkə İlahi elmdir. Cinlərə gəlincə, belə bir yanaşma da qənaətbəxş deyil. Çünki bir qövm və tayfanın etdiyi günah və itaətsizliklər, bunun nəticəsində də məhvə məhkum olmaları başqa qövmün eyni aqibətə məhkum olacağı anlamına gəlmir. Elə isə mələklər qeybdən necə xəbər verə bilərdilər?! Bir halda ki, "Nəml" surəsinin 65-ci ayəsinə görə qeybi yalnız Allah bilir. Deməli, mələklər qeybi bilmədikləri üçün belə bir sualı vermişlər. Elə isə mələklər bu bilgiyə necə sahib olmuşlar? Suala cavab vermək üçün ayənin tərcüməsinə yenidən nəzər salmalıyıq: "Yer üzündə fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?". Yəni insanlar artıq var, yaşayır, bir-birinin qanını tökür və mələklər də bunu görüb belə bir etiraz xarakterli sual ünvanlayır, Allahdan da növbəti ayədə onları razı salacaq cavabı alırlar. Bu isə o deməkdir ki, Adəm ilk insan deyil, həmin insanlar arasından seçilərək peyğəmbərliyə təyin olunan ilk peyğəmbərdir. Əlbəttə, bu bir baxışdır, daha doğrusunu Allah bilir.



*İsmayıl ƏHMƏDOV,*
*ilahiyyatçı*

# Azərbaycan multikulturalizmin beşiyi kimi



1990-cı ilin statistik məlumatlarına görə, Azərbaycanda 100-dən artıq xalq yaşadığı qeydə alınmışdır. 1991-ci ildə ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra məhdudiyyətlərin götürülməsi, sərhədlərin açılması bu göstəricinin artmasına səbəb olmuşdur. Ancaq müxtəlif xalqların, millətlərin özləri ilə gətirdikləri mədəniyyət çaşqınlıq, xaos yaratmamışdır. Geosiyasi baxımdan tranzit mövqedə yerləşən Azərbaycan mənən bu axına hazır idi. Xalqların mehriban şəraitdə yaşaması, bir-birinin mədəniyyətinə, dini etiqadlarına qarşılıqlı hörmətlə yanaşması multikulturalizm anlayışını qəbul etməyimizə mane olmadı.

Mədəniyyət ictimai-tarixi prosesdir. O, antropoloji nöqteyi-nəzərdən fəlsəfi-tarixi düşüncənin, dini-ictimai şüurun, insan təbiətinin təzahürü kimi qələmə verilir. Bütün bu amillərin təsiri nəticəsində bəşər tarixinin mənəvi dəyərlərinin formalaşması baş vermişdir. Mənəvi dəyərlər isə öz növbəsində həmin cəmiyyətin inkişafını müəyyənləşdirir. Bu baxımdan mədəniyyət aksioloji amildir. Mədəniyyətə bu mövqedən yanaşma həmin fenomenin müəyyən dəyər və sərvətlərin kompleksi kimi dərkini nəzərdə tutur. Mədəniyyətin strukturu və ona yanaşmada dəyərlərin rolu qiymətləndirici məqamlarına görə müstəsnalıq təşkil edir. Bunlar ideal təsəvvürləri ilə uyğunlaşdırılaraq insan həyatına məna verirlər.

Mədəniyyəti aksioloji mövqedən dərk etmək bəşəriyyət tərəfindən məqsədyönlü yaradılmış, qorunmuş və inkişaf etdirilmiş dəyər və sərvətlər toplusunun tanınması deməkdir. Əgər mədəniyyətin inkişaf mərhələlərində sivilizasiya pik hədd hesab edilirdisə, bəzi alimlər sivilizasiyanı mədəniyyətlərin toqquşması, bəziləri isə tənəzzülü adlandırırlar.

Multikulturalizm dedikdə müxtəlif millətlərin, mədəniyyətlərin qarşılıqlı münasibəti, eləcə də onların hüquqlarını tanımaq və eyni ərazidə yaşayan müxtəlif xalqların mədəniyyətlərinə uyğun siyasət yürütmək nəzərdə tutulur. Bu siyasətin əsas məqsədi hər hansı ölkə daxilində və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyası, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasını təmin etməkdir. Multikulturalizm humanizm və demokratiya, tolerantlığın təzahür formasıdır. Burada böyük toplumda şəxsin fərdi mənəvi dəyərlərinə hörmət göstərmək, eləcə də onların qorunmasını təmin etmək məqsədi güdülür. Onların bu cür münasibəti mədəniyyətlərin inkişafına da təkan verir.

Azərbaycan bu istiqamətdə görülən işlərdə daha maraqlıdır. Baxmayaraq ki, bəzi dövlətlərlə müqayisədə ölkəmiz ərazi baxımından kiçikdir, lakin coğrafi mövqe aspektindən tranzit ərazidə yerləşməsi müxtəlif mədəniyyətlərin burada bir araya gəlməsinə səbəb olmuşdur.

Halbuki dünyanın inkişaf etmiş ölkələri inkişafın bu həddində belə, tolerantlıq anlayışını mədəniyyətlərinə daxil edə bilmir, dini zəmində qarşıdurmalarla tez-tez rastlaşırlar. Lakin Azərbaycan Respublikasının bu istiqamətdə apardığı siyasət bu kimi dövlətlərə nümunə ola bilər.

Bəzi Avropa ölkələri multikulturalizm anlayışını qəbul etmirlər. Bu, onların həmin ərazidə yaşayan xalqların mədəniyyətinə, adət-ənənələrinə önəm verməmələri, onların vahid mədəniyyətə tabe olmaları tələbindən irəli gəlir. Lakin humanizm ideyalarının, insan hüquqlarının qorunduğu XXI əsrdə istər böyük, istərsə də kiçik xalqların mədəni mövqeyinə hörmətlə yanaşmaq dövlət siyasətinin əsasını təşkil etməlidir.

Tarixən Azərbaycan ərazisində yaşayan ən xırda xalqların belə, hüquqları qorunmuşdur. Onların mədəniyyətlərini inkişaf etdirmək üçün teatr binaları, dillərinin qorunması üçün məktəblər və mətbu orqanlar təsis etməsinə şərait yaradılmış, eyni zamanda dini etiqadlarına hörmətlə yanaşılaraq ibadətgahlar tikilmişdir. Hətta ölkə başçısı onların dini bayramlarını təbrik etmiş, yeni ibadət ocaqlarının tikintisinə, yeni binalarla təmin olunmasına sərəncam verməklə onlara öz diqqət və qayğısını əsirgəməmişdir. Bununla da cəmiyyətdə istər dini, istərsə də milli zəmində sabitliyin qorunması təmin olunmuşdur.

Müxtəlif dinlərin və xalqların nümayəndələrinə göstərilən bu münasibət qarşılıqlı mədəni inteqrasiya ilə nəticələnir. Belə ki, açıq şəkildə öz adət-ənənələrini yerinə yetirmək onların bir-birinin mədəniyyətindən yararlanmağa və bu qarşılıqlı münasibətin fonunda inkişafa da səbəb olur. Bu, özlüyündə həm də yaxşı adətlərin, ideyaların təbliği deməkdir. Yalnız belə qarşılıqlı münasibət fonunda multikulturalizm anlayışı özünün tərəqqisini sübut edə bilər.

***Sona HƏMİDOVA***

# Ruhun cinsiyyəti varmı?

Fəlsəfədə mübahisəli mövzulardan biri də ruhun cinsiyyətə malik olub-olmamasıdır. Belə ki, bəzilərinin iddiasına görə, ruhun cinsiyyəti yoxdur – nə kişidir, nə də qadın. Kişilik və ya qadınlıq fiziki bədənə aiddir, ruhda isə belə bir xüsusiyyət yoxdur. Bu iddianın əksinə olaraq qarşı tərəf hesab edir ki, ruhun cinsiyyəti var. Deməli, ruh rəngsiz, surətsiz, cinsiyyətsiz deyil: ya kişi, ya da qadın rəngi ilə boyalıdır. Onu da qeyd edim ki, kişilik və ya qadınlıq dedikdə bioloji, fizioloji xüsusiyyət nəzərdə tutulmur. Cinsiyyəti təkcə bioloji anlamda qavramaq yanlışdır. "Cins" (sex) ilə "cinsiyyət" (gender) kimliyini bir-birindən ayırmalıyıq. Birinci - bioloji, fizioloji, ikinci isə psixolojidir. "Gender" insanın cinsiyyət kimliyini, yəni qadın, yoxsa kişi kimliyini təyin edir. Bu əsasla, ruhən narahat olacaq, acı çəkəcək, yoxsa bunu tamamilə adi qarşılayacaq və həmin körpəyə məhəbbətini duymayacaq? Zənnimcə, bu eksperimenti zehnində canlandıran hər bir adam intuisiyasının tələbinə əsasən hökm edəcək ki, ana qeyd olunan səhnə qarşısında narahat olacaq, körpəyə bağlılığı ona ruhən acı çəkdirəcək.

İndi isə müddəanın lehinə olan sadə bir arqumenti nəzərdən keçirək.

Məlum olduğu kimi, hər kəsin kimliyi var. Kimlik bir fərdin "kim" olmasını ifadə edən gerçəkdir. Buna "gender" deyilir və insanın biloji-fizioloji tərəflərini ifadə etmir. İnsan öldükdən sonra kimliyini əldən vermir. Belə ki, dünyada hansı kimliyə sahib idisə, ölümdən sonrakı dünyada da həmin kimliyə sahib olacaq. Yoxsa, məsələn, Sabir öldükdən



"gender" qadın və kişinin zahiri bədənindəki bioloji quruluşlarını deyil, onun cinsiyyət kimliyini ifadə edən termindir. Deyilənlərdən aydın olur ki, iki cür insan var: "kişi insan" və "qadın insan", baxmayaraq ki, hər ikisi insandır.

Zənnimcə, ruhunun cinsiyyəti var, biz ruhları kişi və qadın olmaqla iki yerə ayıra bilərik. Fəlsəfədə bu müddəanı təsdiqləyən ciddi dəlillər mövcuddur. İlk olaraq, deyilən müddəanı əsaslandırmaq üçün bir zehni eksperimenti nəzərdən keçirək. Məsələn, fərz edək, bir ana dünyasını dəyişir və axirətə köçür. Vəfatından sonra azyaşlı körpəsi qəddar bir adamın əlinə düşür və həmin şəxs hər gün uşağa olmazın əziyyətlər verir. Yenə fərz edək ki, Allah ananı bu səhnədən xəbərdar edir. Burada belə bir sual yaranır: əgər ruhun cinsiyyəti yoxdursa və həmin ana fiziki bədənindən təcrid olunduğuna görə qadın cinsinə daxil deyilsə, nəticədə analıq da qadın cinsinə aid bir xüsusiyyətdirsə, bu zaman həmin ana ona göstərilən səhnə qarşısında nə kimi reaksiya göstərə bilər? İntuisiyalarımız bu barədə nə deyir? Sizcə, ana bu səhnəyə görə

sonra daha özü ola bilməz. Özü ola bilməsi üçün gərək öz kimliyi olduğu kimi sabit qalsın.

Qadın və ya kişi - hər biri bir insan olaraq özünəməxsus kimliyi (qadın və kişi kimliyi) vardır. Məlum fəlsəfi və dini dəlillərə əsasən, axirət həyatı maddi-fiziki həyat olmadığından, orada hansısa bioloji-fizioloji xüsusiyyətləri özündə daşıyan cinsiyyətdən söz açmaq olmaz. Deməli, bir qadın dünya həyatında hansı kimliyə sahibdirsə, axirət həyatından sonra da eyni kimliyə sahib olacaq. Bu kimlik onun cinsiyyətini (gender) ifadə edir. "Ruhun cinsiyyəti var" dedikdə, məqsədimiz bu mənada olan kimlik cinsiyyətidir. Bu əsasla, qadın dünyada hansı kimlik cinsiyyətinə sahib idisə, axirətdə də eyni kimlik cinsiyyətinə sahib olacaq. Həmçinin kişilər də bu qəbildəndir.

Belə ki, dünya həyatındakı kimlik cinsiyyətləri olduğu kimi qalacaqdır.



***Emin İMANLI, ilahiyyatçı***

# "İslamda Vətən və dövlət sevgisi" adlı kitab nəşr olunub




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədovun müəllifi olduğu "İslamda Vətən və dövlət sevgisi" adlı kitab nəşr olunub.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş kitab müxtəlif vaxtlarda qələmə alınmış məqalələrin toplusudur. Burada Vətənə, dövlətə bağlılıq, ona sədaqətlə xidmət etmək, dövlət atributlarına ehtiram, dövlətçiliyimizin formalaşmasında milli-mənəvi dəyərlərin rolu kimi mövzulara toxunulur. Eyni zamanda, kitabda Ümummilli Lider Heydər Əliyevin milli-mənəvi dəyərlərə, İslam dininə göstərdiyi diqqət və qayğı, tarixi-dini abidələrin bərpası və yeni ibadət evlərinin inşası, dini etiqad azadlığının təmin olunması istiqamətində görülən işlər xüsusilə vurğulanıb.

Milli-mənəvi dəyərlər sisteminin tədqiqi istiqamətində araşdırmalara yeni töhfə olan məqalələr toplusu gənc nəslə Vətənə və dövlətə bağlılıq duyğularının daha geniş tərənnümünə yardım edəcəkdir.

# Cəmiyyət və Din

№ 12 (293) / DEKABR 2015-ci il


## ELAN

## DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

### *Ləğv olunmuş dini icmalar*

**Lənkəran şəhər dini icması**
**Qeydiyyat tarixi: 06.02.2005-ci il**
**Qeydiyyat № 1306Lə1-339**

Lənkəran şəhər dini icması təsisçilərinin 15.10.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

**Qeydiyyata alınma tarixi:**
**14 dekabr 2015-ci il**

---

**Lerik rayonu Piran kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 27.05.2008-ci il**
**Qeydiyyat № 1308Le1-497**

Lerik rayonu Piran kənd məscidi dini icması təsisçilərinin 14.10.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

**Qeydiyyata alınma tarixi:**
**14 dekabr 2015-ci il**

---

**Hacıqabul şəhər "Hacı Yadulla" məscidi dini icması**
**Qeydiyyat tarixi: 29.04.2008-ci il**
**Qeydiyyat № 1308H1-461**

Hacıqabul şəhər "Hacı Yadulla" məscidi dini icması təsisçilərinin 15.10.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

**Qeydiyyata alınma tarixi:**
**14 dekabr 2015-ci il**

---

Salyan şəhər dindarları dini icmasının (06.03.2002-ci ildə 73 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 08.12.2015-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

---

**Şəki şəhəri "Ömər Əfəndi" məscidi dini icması**
**Qeydiyyat tarixi: 07 may 2010-cu il**
**Qeydiyyat №-si: 100110A2 – 345**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əhmədov Hacıbaba Hacıbala oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Məmmədrəhimov Cavanşir Əhməd oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir. Əhmədov Əli Abdulrəşid oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Məmmədov Kamran Əjdər oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:**
**08 dekabr 2015-ci il**

---

**Bakı şəhəri Əzizbəyov rayonu Qala kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 09 dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 –73**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bakı şəhəri Əzizbəyov rayonu Qala kənd məscidi dini icmasının adında və hüquqi ünvanında "Əzizbəyov" sözü "Xəzər" sözü ilə əvəz olunaraq Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:**
**07 dekabr 2015-ci il**

---

**Şəki rayonu Cəyirli kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 15 mart 2010-cu il**
**Qeydiyyat №-si: 100110A2 – 255**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Nəsirov Təhmasif Məhyəddin oğlu, Quluyev Heydar Əvəz oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Paşayev Məmmədəli Əli oğlu, Abbasov Cəmil Yunus oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi:**
**17 dekabr 2015-ci il**

---

**Hacıqabul rayonu Talış kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 09 dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 – 72**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cəfərov Musa İbad oğlu, Səlimov Niyaz Piri oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Cəfərov Zabir Musa oğlu, Səlimov Mehman Niyaz oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi:**
**17 dekabr 2015-ci il**

---

**Yardımlı rayonu Yardımlı şəhər məscidi dini icması**
**Qeydiyyat tarixi: 01 iyul 2011-ci il**
**Qeydiyyat №-si: 100111A1 – 542-11**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ağayev Hüsən Alış oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Ağayev Asif Hüsən oğlu, Əmirli Anar Səfər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. İsmayılov Sabir Ağadin oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Ağayev Asif Hüsən oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:**
**17 dekabr 2015-ci il**

## Yadigar söz

**Georq Kristof Lixtenberq,**
*Alim, publisist*

**Dünya yalnız onu anlamaq üçün deyil, həm də onun üçündür ki, biz orada özümüzü tərbiyə edək.**

İki müsəlman ölkəsindən

## Yeni il qadağası



Bruney sultanı Hassanal Bolkiah ölkədə Yeni ilin qeyd edilməsinin İslam ənənəsinə zidd olduğunu bildirib. Bu qadağaya riayət etməyənlərə 5 il həbs cəzası veriləcəyi açıqlanıb.

Somali hökuməti də Yeni ili keçirməyi Xristian adəti olması ilə əlaqədar qadağan edib. Somalidəki xristianlar bu bayramı yalnız evlərində qeyd edə biləcəklər.

## Müsəlman ailə ABŞ təyyarəsinə buraxılmadı

İngiltərənin London şəhərində müsəlman bir ailənin Disneylendə getmək məqsədilə Los-Anceles təyyarəsinə minməsi amerikalı rəsmilər tərəfindən qadağan edilib.



Məlumata görə, Londonda yaşayan Məhəmməd Tarix Mahmud, qardaşı və doqquz uşağı ilə birlikdə yola düşmək üçün gəldikləri "Gatwick" hava limanında amerikalı rəsmilərin qadağaları ilə qarşılaşıblar. Üstəlik, hər hansı səbəb göstərilmədən təyyarəyə minməsi qadağan edilən ailənin 9 min sterlinq (20 000 azn) dəyərindəki biletləri də yanıb.

İngiltərə Əmək Partiyasının millət vəkili Stella Krizi və İngiltərənin Baş naziri Devid Kameronun hadisə ilə əlaqədar amerikalı rəsmilərdən açıqlama tələb etdiyi bildirilir.

Xatırladaq ki, amerikalı biznesmen Donald Trump bir müddət əvvəl prezident seçkiləri ilə bağlı hazırladığı çıxışında bildirmişdi ki, mühacir və ya turist olaraq ABŞ-a gəlmək istəyən müsəlmanlar ölkəyə qəbul edilməməlidir.

## Həmrəylik günümüz

Dünya Azərbaycanlılarının Həmrəylik Günü — 31 dekabr Azərbaycan millətinin ümumdünya birlik günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəylik gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir.

Bu bayram dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur. Həmrəylik günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilib. Bu günü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda sərhədlərin (SSRİ-İran sərhədləri) dağılması zamanı qoyuldu. Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəkləri dağıdıldı. Bu vaxt İstanbulda türkdilli xalqların konfransı keçirilirdi. Konfransda dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verildi.

1991-ci il dekabr ayının 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Beləliklə, bütün azərbaycanlılar üçün əziz olan 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayram kimi qeyd olunur. Azərbaycanlılar bu günü qürurla keçirirlər.

## BAYRAMINIZ MÜBARƏK





Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
Qaynar xətt: qaynar_xett@scwra.gov.az
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (055) 635 98 90
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 05 33
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "**Azərbaycan**" **nəşriyyatında** ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 124

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894